Günəş Şərqdən doğur!

❒ № 111 (5392), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az

25 iyun 2021-ci il (cümə)



## Ermənilər Tovuz istiqamətində mövqelərimizi atəşə tutub

Azərbaycan Ordusunun şəxsi heyəti arasında həlak olan və yaralanan yoxdur

(Səh.9)



## “Gülüstan" sarayı yenidən qurulub

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəraitlə tanış olub

**Bakıdakı əzəmətli ”Gülüstan” sarayı yüksək səviyyədə və özünəməxsus memarlıq üslubu saxlanılmaqla yenidən qurulub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ”Gülüstan” sarayında yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olublar.

(səh.2)

## XİN başçıları Azərbaycanda görüşlər keçirəcək



Rumıniya, Avstriya və Litva xarici işlər nazirləri Azərbaycana yola düşüb.

(səh.2)

# Komitə sədri açıqladı

## Qarabağa ilk olaraq yaxşı şəraitdə yaşamayan insanlar köçürüləcək



**“Məcburi köçkünlərin böyük əksəriyyəti birmənalı olaraq öz şəhərlərinə, rayonlarına, kəndlərinə qayıdacaqlar”.**

Bunu Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Ukraynanın ”Ukrayna 24” telekanalına müsahibəsində deyib. Onun sözlərinə görə, Ermənistanın işğalından azad olunmuş ərazilərdə şəhərlər və kəndlər abadlaşdırıldıqdan sonra oraya ilk növbədə məhz daimi yaşayış yeri ilə təmin edilməmiş vətəndaşlar köçürüləcək.

(səh.3)

# Liderlər razılığa gəliblər



## Putin və Ərdoğan Qarabağ ətrafında yaranmış vəziyyəti müzakirə ediblər

(səh.2)

## Cənubi Qafqazda Türkiyə faktoru var

“Rusiya yaxşı başa düşür ki, post-sovet məkanında artıq dominantlıq etmək çətindir”

(səh.4)

## “Əzizlərim, vaksin vurdurun, canınız qurtarsın"

Razi Nurullayev: “Yoxsa, hər addımda, hər idarədə, toyda, restoranda, iş yerində pasport soruşacaqlar”

(səh.8)

## Fəlakət baş verəndə camaatı günahlandırırlar

“Bakıda tikinti və şəhərsalma normaları kobud şəkildə pozulub”

(səh.9)

## “Müasir Azərbaycan ədəbiyyatı Nargin adasına bənzəyir"

Akif Emenquey: “Bu yerdə hər gün nə qədər şair, yazıçı güllələnir”

(səh.14)

# “Gülüstan” sarayı yenidən qurulub

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəraitlə tanış olub



**Bakıdakı əzəmətli ”Gülüstan” sarayı yüksək səviyyədə və özünəməxsus memarlıq üslubu saxlanılmaqla yenidən qurulub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ”Gülüstan” sarayında yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olublar.

”Gülüstan” sarayı ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1979-1980-ci illərdə inşa edilib. Ulu Öndər bu sarayın tikintisinin gedişini şəxsən daim nəzarətdə saxlayıb, inşaat işlərinin yüksək səviyyədə aparılması ilə bağlı mütəmadi olaraq tövsiyə və tapşırıqlarını verib. ”Gülüstan” sarayı yalnız keçmiş Sovet İttifaqında deyil, daha geniş məkanda ən müasir və özünəməxsus gözəl arxitektura nümunələrindən biri hesab olunurdu. Bakının memarlıq ansamblını daha da gözəlləşdirən bu sarayın inşası o zaman Ulu Öndərin paytaxtımızın inkişafı ilə bağlı həyata keçirdiyi silsilə tədbirlərin tərkib hissəsi idi. Sarayın arxitekturasında Azərbaycanın milli memarlıq elementlərindən geniş istifadə olunub.

Öz əzəməti və bənzərsiz memarlıq üslubu ilə seçilən ”Gülüstan” sarayında tarixi əhəmiyyət kəsb edən, müxtəlif sahələrə aid bir sıra ümumrespublika və beynəlxalq əhəmiyyətli tədbirlər keçirilib. Onların arasında ”Əsrin müqaviləsi”nin imzalanması və digər tarixi hadisələri qeyd etmək olar. Zaman keçdikcə ”Gülüstan” sarayının yenidən qurulmasına zərurət yaranmışdı.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial infrastrukturun inkişafı və müasirləşdirilməsi, regionların və paytaxtımızın daha da abadlaşması, eyni zamanda, Bakının tarixi görkəminin saxlanılması, tarixi binaların bərpası ilə bağlı layihələrin icrası istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Dövlətimizin başçısının tapşırığı ilə ”Gülüstan” sarayının yenidən qurulması da bu istiqamətdə görülən işlər sırasında mühüm yer tutur.

”Gülüstan” sarayında 600 yerlik əsas zal, həmçinin ”Şərq” zalı və konfrans zalı da müasir səviyyədə yenidən qurulub. Beləliklə saray yeni görkəmdə, yeni üslubda, amma öz tarixi koloritini saxlamaqla qapılarını qonaqların üzünə açır.

Paytaxtın dağlıq hissəsində yerləşən ”Gülüstan” sarayı Bakı körfəzini və şəhərin mənzərəsini seyr etmək üçün ən gözəl məkanlardan biridir. ”Gülüstan” sarayının yenidən qurulması heç şübhəsiz ki, postpandemiya dövründə də Azərbaycanın yüksək səviyyədə ev sahibliyi edəcəyi beynəlxalq tədbirlərin keçirilməsi işinə öz töhfəsini verəcək.

## Qırğızıstan Prezidenti Azərbaycana yeni səfir təyin edib



**Qırğızıstan Prezidenti Sadır Japarov ölkəsinin Azərbaycandakı yeni səfiri barədə fərman imzalayıb.**

Bu barədə ölkə prezidentinin rəsmi saytı məlumat yayıb.

Fərmana əsasən, Kayrat Mederbekoviç Osmonaliyev Qırğız Respublikasının Azərbaycandakı yeni səfiri təyin edilib.

*Qeyd edək ki, K.Osmonaliyev ”Azərbaycanın Qırğız Dostları Klubu”nun prezidenti, hüquq elmləri doktoru, professordur.*

## XİN başçıları Azərbaycanda görüşlər keçirəcək



**Rumıniya, Avstriya və Litva xarici işlər nazirləri Azərbaycana yola düşüb.**

APA-nın xəbərinə görə, bu barədə Rumıniyanın xarici işlər naziri Boqdan Auresku ”Twitter”də bildirib.

”Aİ-nin regionla bağlı müsbət gündəliyini möhkəmləndirmək, həmrəylik və sadiqliyini sübut etməkdə qərarlıyıq”, - deyə rumıniyalı nazir qeyd edib.

Rumıniya XİN başçısı ilə yanaşı Avstriyanın Avropa və beynəlxalq məsələlər üzrə naziri Aleksandr Şallenberq, Litvanın xarici işlər naziri Qabrielius Landsberqis də regiona səfər edir. Onlar iyunun 25-26-da Azərbaycan, Ermənistan və Gürcüstanda yüksək səviyyəli görüşlər keçirəcək.

## Hulusi Akar: "Yunanıstan razılaşmalara əməl etmir"



**“Yunanıstan tərəfi Egey bölgəsindəki razılaşmalara əməl etmir”.**

”Report” xəbər verir ki, bunu Türkiyənin milli müdafiə naziri Hulusi Akar bildirib.

O, Türkiyənin ”Mavi Vətən” adlandırdığı dəniz akvatoriyasının müdafiəsi üçün bütün lazımi tədbirlərin görüləcəyini deyib : ”Bu mənada Yunanıstanın silahlanma səylərindən ən böyük zərəri məhz yunan xalqı görəcək”.

## Gürcüstanda karantin cərimələri əfv edilir

### Qanundan 245 min vətəndaş, habelə 344 hüquqi şəxs yararlanacaq



**Gürcüstanda karantin qaydalarının pozulmasına görə tətbiq edilən, lakin ödənməmiş cərimələr əfv edilir.**

APA bildirir ki, bu barədə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili keçirdiyi brifinqdə bildirib.

O deyib ki, özünütəcrid və karantin qaydalarının pozulmasına, tibbi maska taxmamağa görə barələrində cərimə tətbiq edilən şəxslər parlamentə təqdim edilən iki qanun layihəsi əsasında ödənişdən azad ediləcək.

İ. Qaribaşvili qeyd edib ki, 245 min vətəndaş, habelə 344 hüquqi şəxs bundan yararlanacaq.

*Əfv olunan cərimələrin ümumi məbləğinin 76 milyon lari (41 milyon manat) təşkil edəcəyi bildirilir.*

# Liderlər razılığa gəliblər

## Putin və Ərdoğan Qarabağ ətrafında yaranmış vəziyyəti müzakirə ediblər



**Rusiya və Türkiyə prezidentləri Vladimir Putin və Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub.**

Kremlin Mətbuat Xidməti xəbər verir ki, telefon danışığı zamanı Rusiya və Türkiyə liderləri Dağlıq Qarabağ ətrafındakı vəziyyətlə bağlı fikir mübadiləsi aparıblar, atəşkəsə nəzarət üzrə Rusiya-Türkiyə Birgə Mərkəzinin fəaliyyətinə müsbət qiymət verilib.

Ərdoğan Rusiya, Ermənistan və Azərbaycan liderlərinin 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli bəyanatlarında təsbit olunmuş razılaşmaların tam şəkildə həyata keçirilməsini təmin etmək üçün rəsmi Moskvanın səylərini dəstəklədiyini bildirib. İqtisadi inkişaf və regionun nəqliyyat infrastrukturunun bərpası maraqları daxil olmaqla koordinasiyanı davam etdirməyə qarşılıqlı hazırlıq ifadə olunub.

Putin və Ərdoğan müxtəlif sahələrdə Rusiya-Türkiyə əməkdaşlığının aktual məsələlərini müzakirə ediblər. Rəcəb Tayyib Ərdoğan Türkiyə ilə uçuşları bərpa etmək qərarına, eləcə də, ”Sputnik V” peyvəndinin tədarükünə başladığına görə Rusiya tərəfinə təşəkkür edib.

Telefon danışığı zamanı Suriyadakı məskunlaşma məsələləri nəzərdən keçirilərkən, İdlibdə və ölkənin şimal-şərqində gərginliyin artmasının qarşısını almaq və bu ərazilərdə qalan terror qruplarına qarşı mübarizə məqsədi ilə Rusiya və Türkiyə hərbçilərinin birgə fəaliyyətlərinin vacibliyi vurğulanıb.

Vladimir Putin Cenevrədə ABŞ Prezidenti Co Baydenlə aparılan danışıqlarla bağlı təəssüratlarını Türkiyə lideri ilə bölüşüb.

Söhbət əsnasında, həmçinin şəxsi təmasların və digər səviyyələrdə birgə işlərin davam etdirilməsi barədə razılığa əldə olunub.

# Prezidentin mövqeyi prinsipial və qətiyyətlidir

## Deputat: "İnanıram ki, növbəti günlərdə digər ərazilərin də mina xəritələrini əldə edəcəyik"



Prezident İlham Əliyev BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinosla görüşü zamanı ona Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarında törətdiyi barbarlıq aktlarını, dağıntılar və minalanmış ərazilərin xəritəsi barədə məlumat verib. Dövlət başçısı BMT-dən gələn ali qonağa bildirib ki, ermənilər xəritələri Azərbaycana verməkdən imtina edirlər:

"Bir aydan da az vaxtda biz artıq yenidənqurma prosesinə başladıq. Siz gördünüz, hər şey dağılıb. Eyni zamanda, təkcə Ağdam rayonunda 97 min mina basdırılıb. Biz Ermənistandan yalnız Ağdam rayonu üzrə mina xəritələrini ala bilmişik, digər rayonlarda yüz minlərlə mina var. Onlar xəritələri bizə verməkdən imtina edirlər və bizdə artıq 100-dən çox ölən və yaralanan oldu. Müharibə başa çatandan sonra minalardan, piyada əleyhinə və tank əleyhinə minalardan 30-a yaxın adam həlak oldu. O cümlədən bu ayın əvvəlində 2 jurnalist həyatını itirdi".

Ölkə rəhbəri vurğulayıb ki, Qarabağı təkcə müharibə dövründə deyil, ondan sonra da dağıdıblar: "Demək olar ki, 30 il ərzində sistematik şəkildə bir neçə səbəbdən dağıdıblar". Prezident ermənilərin bu dağıntıları hansı səbəbdən törətdiklərini də sadalayıb: "Birincisi, bütün tikinti materiallarını götürmək üçün. Çünki evlər sökülmüş, daşlar aparılmışdı. Bu, oğurluq idi. İkinci səbəb azərbaycanlılara geri qayıtmağa imkan verməmək idi. Onlar düşünürdülər ki, total dağıntıdan sonra heç kim qayıtmayacaq. Təkcə şəhərlərdə deyil, kəndlərdə də, Zəngilanda, Qubadlıda vəziyyət eynidir. Bütün kəndlər, bütün şəhərlər dağıdılıb. İndi biz onları minalardan təmizləməli, həmçinin paralel olaraq yenidənqurmaya başlamalıyıq". Dövlət başçısı bütün resursları səfərbər edərək böyük infrastruktur layihələrinə başladıqlarını bildirib: "Biz onları yenidən quracağıq və bu miqyasda dağıntıdan inkişafa, insanlar üçün layiqli yaşayış standartlarına doğru dünyada nadir təcrübə nümayiş etdirəcəyik".

İctimaiyyət nümayəndələri hesab edirlər ki, Prezidentin ermənilərin barbarlığını və minalanmış ərazilərin xəritələrinin verilməməsi ilə bağlı nüfuzlu qurumların rəhbərliyini məlumatlandırması mühüm və zəruridir. Avropa Şurası və digər beynəlxalq təşkilatların son günlər Ermənistana xəritələrlə əlaqədar çağırış etməsi bu cür görüş və müraciətlərin önəmindən xəbər verir.

**Millət vəkili Ceyhun Məmmədov "Şərq"ə bildirib ki, burada söhbət cənab Prezidentin prinsipial mövqeyindən gedir.** Deputatın fikrincə, dövlət başçısı minalanmış ərazilərin xəritələrinin Azərbaycana verilməsi ilə bağlı hər zaman öz mövqeyini ortaya qoyub və dünya ictimaiyyətini xəbərdar edib: "Bütün ali qonaqları qəbul edərkən, beynəlxalq görüşlər zamanı, o cümlədən telefonla danışarkən bu məsələ xüsusi ilə qaldırılır. Ölkə rəhbəri Ermənistanın minalanmış ərazilərin xəritələri ilə bağlı təhlükəli mövqeyini qətiyyətlə pisləyir. Dövlət başçısının bu sahədə həyata keçirdiyi siyasət xəritələrin digər hissəsinin də alınmasına gətirib çıxaracaq. Hazırda əlimizdə sadəcə Ağdamın xəritələri var. İnanıram ki, növbəti günlərdə digər ərazilərin də mina xəritələrini əldə edəcəyik". Parlament üzvü vurğulayıb ki, Azərbaycanın Qarabağ məsələsində mövqeyi Vətən müharibəsində çox böyük rol oynadı: "Son vaxtlar bütün məsələlərdə dövlət başçısı cənab İlham Əliyevin prinsipial və qətiyyətli yanaşmasını müşahidə edirik. Dövlət başçısı şəxsən özü bütün mötəbər tədbirlərdə işğaldan azad edilmiş rayonlarla bağlı məqamlara toxunur. Erməni vəhşiliyini qabardır. Azərbaycana gələn mötəbər qonaqların işğaldan azad edilmiş bölgələrə səfərlərinin təşkil edilməsi də bu siyasətin tərkib hissəsidir".

**İsmayıl Qocayev**



## Komitə sədri açıqladı

### Qarabağa ilk olaraq yaxşı şəraitdə yaşamayan insanlar köçürüləcək

**"Məcburi köçkünlərin böyük əksəriyyəti birmənalı olaraq öz şəhərlərinə, rayonlarına, kəndlərinə qayıdacaqlar".**

Bunu Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Ukraynanın "Ukrayna 24" telekanalına müsahibəsində deyib. Onun sözlərinə görə, Ermənistanın işğalından azad olunmuş ərazilərdə şəhərlər və kəndlər abadlaşdırıldıqdan sonra oraya ilk növbədə məhz daimi yaşayış yeri ilə təmin edilməmiş vətəndaşlar köçürələcək.

"Kifayət qədər müasir şəraitdə yaşayan məcburi köçkünlər də həmin ərazilərə qaytarılacaq, lakin biz ilk növbədə yaxşı şəraitdə yaşamayan insanlara kömək edəcəyik", - Dövlət Komitəsinin sədri bildirib.

*Qeyd edək ki, bir müddət öncə Qarabağa qayıdışın effektiv təşkili məqsədilə məcburi köçkünlər arasında sorğu keçirilib. Sorğunun nəticələri işğaldan azad olunmuş ərazilərimizin bərpası və qayıdışın planlaşdırılması zamanı nəzərə alınacaq. Dövlət sifarişi əsasında, müxtəlif elmi-tədqiqat və tədris müəssisələrini təmsil edən və müstəqil qrup kimi fəaliyyət göstərən alimlər tərəfindən aparılan sorğu materialları, o cümlədən respondentlərin şəxsi məlumatları, cavabları məxfi qalacaq.*

**Aynurə**

# Ermənilərin tarix boyu türklərə nifrəti zərrə qədər də azalmayıb

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı tərəfindən Ermənistan rəhbərliyinin uzun illər azərbaycanlılara qarşı apardığı nifrət siyasəti nəticəsində törədilmiş cinayətlər və nifrət nitqi ilə bağlı videoçarx hazırlanıb.

Ombudsman Aparatından bildirilib ki, Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü, işğal və etnik təmizləmə siyasəti ilə bağlı faktlar, Ermənistanın siyasi rəhbərliyi səviyyəsində azərbaycanlılara qarşı nifrət ifadə edən nitqlər, İkinci Qarabağ müharibəsi dövründə Azərbaycanın mülki yaşayış məntəqələrinin hədəfə alınması ilə bağlı sosial şəbəkələrdə ermənilərin verdiyi şərhlər və reaksiyalar videoda öz əksini tapıb. Bununla yanaşı, videoda Ombudsmanın münaqişə nəticəsində zərər çəkmiş ərazilərdə həyata keçirdiyi faktaraşdırıcı missiya haqqında məlumatlara da yer verilib. Videoda istifadə edilmiş materiallar bir daha sübut edir ki, Ermənistan tərəfindən azərbaycanlılara qarşı nifrət aşılanması məqsədilə uzun illərdir həyata keçirilən siyasət nəticəsində gənc nəslin də bu ruhda yetişdirilməsi bölgədə sülhün bərqərar olmasına böyük manеə yaradır. Qeyd edək ki, bir müddət əvvəl Ombudsman Səbinə Əliyeva beynəlxalq təşkilatlara Ermənistanın azərbaycanlılara qarşı nifrət cinayətləri və nifrət nitqi ilə bağlı hesabat ünvanlayıb.



Akif Nağı: "Biz müharibədə qalib gəlmiş xalqıq, amma gələcəkdə görülləsi işlərimiz də çoxdur"



**Mövzu ilə bağlı Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı "Şərq"ə açıqlamasında bildirib ki, tarix boyu erməni daşnaklarının türklərə - azərbaycanlılara qarşı törətdikləri soyqırımlarının və terror aktlarının sayı-hesabı yoxdur.** O qeyd edib ki, ermənilərin içində türklərə qarşı qaynayıb daşan kin, nifrət əsrlər boyu zərrə qədər də azalmayıb: "Ermənilər bu xislətlərinə görə heç vaxt inkişafa nail ola bilməyiblər. Hər hansısa bir quruculuq işləri ilə məşğul olmaq, dövlətini inkişaf etdirmək kimi hisslər ermənilərə tamamilə yaddır. Biz bunu əsrlər boyu müşahidə eləmişik. Ona görə də heç vaxt onların dövlətləri olmayıb və hər hansı bir sahədə uğur əldə edə bilməyiblər. Yalnız ondan-bundan nəsə oğurlamaqla özlərini dünyaya göstərməyə çalışıblar. Onların həyat tərzi yalnız düşmən axtarmaqdan ibarətdir. Özlərinə düşmən tapsınlar, ona qarşı təbliğat qursunlar və özlərini bütün dünyaya yazıq millət kimi göstərsinlər. Ona görə də ermənilərin bütün siyasətləri buna yönəlib. Qeyd edim ki, bu millət 1915-ci ildə olmayan hadisəni şişirtdilər və 100 ildir ki, bütün işlərini onun ətrafında qurublar. Başqa millət olsaydı özünün dövlətçiliyi inkişafı ilə məşğul olardı. İndi də çalışırlar ki, dünyaya səslərini çatdırsınlar ki, guya, Azərbaycan bunları əzdi. Dünən erməni saytları yazır ki, Avropa Şurası Parlament Assambleyasındakı deputatlardan biri çıxış edib və ağlayıb ki, bəs pandemiya dövründə Azərbaycan bizə hücum elədi. Guya, Azərbaycan pandemiya vəziyyətində deyildi? Yəni bu cür məqamlarla diqqət cəlb etməyə və özlərini bədbəxt kimi qələmə verməyə çalışırlar. Bu, onlar üçün həqiqətən də çox bədbəxtçilikdir. Bu istiqamətdə sosial şəbəkələrdə bir çox paylaşımlar edirlər. Bir neçə gün bundan öncə "Rossiya today" telekanalının baş redaktoru Marqarita Simonyan Facebookda "Ayıl, oğlum!" adlı video paylaşıb. Beləliklə, Simonyan öz övladlarına azərbaycanlılara və türklərə qarşı nifrət aşılamaq əmrini verən ermənilərin ənənəsini davam etdirir. Təbii ki, bu onların bacarıqsızlığından irəli gəlir. Ona görə də Azərbaycan öz təbliğatını bu istiqamətdə qurmalıdır".

**A.Nağı vurğulayıb ki, biz müharibədə qalib gəlmiş xalqıq, amma gələcəkdə görüləsi işlərimiz də çoxdur:** "Ermənilərin bu yalançı təbliğatına qarşı ciddi işlər görülməlidir. İlk növbədə beynəlxalq ictimai rəyi düzgün formalaşdırmalıyıq. Dünyaya başa düşməlidir ki, biz ermənilərə deyil, işğalçılara, terrorçulara və soyqırım törədənlərə nifrət edirik".

**Aynurə Pənahqızı**

# Cənubi Qafqazda Türkiyə faktoru var



## “Rusiya yaxşı başa düşür ki, post-sovet məkanında artıq dominantlıq etmək çətindir”

Rusiya Prezidenti Vladimir Putinlə Azərbaycan lideri İlham Əliyev arasında telefon söhbəti baş tutub. Prezidentlərin söhbəti Azərbaycan tərəfinin təşəbbüsü ilə baş tutub. Liderlər telefon danışığı zamanı Cənubi Qafqazda iqtisadi əlaqələrin və nəqliyyat kommunikasiyalarının bərpası üzrə işlərin fəallaşmasını müzakirə ediblər.

2020-ci il 10 noyabr və 2021-ci 11 yanvar tarixli Rusiya, Azərbaycan və Ermənistan liderlərinin razılaşmalarının həyata keçirilməsinin praktiki aspektləri nəzərdən keçirilib. Ölkə başçıları Rusiya-Azərbaycan strateji tərəfdaşlığının daha da möhkəmləndirilməsinə olan qətiyyətlərini təsdiq ediblər. Müxtəlif səviyyələrdə təmasların davam etdirilməsi barədə razılıq əldə olunub. Xatırladaq ki, Rusiya və Azərbaycan prezidentlərinin telefon danışığından qısa zaman öncə iki ölkənin xarici işlər nazirləri arasında təmaslar olub.

**”Atlas” Araşdırmalar Mərkəzinin eksperti Samir Hümbətov ”Şərq”ə deyib ki, indiki məqamda Rusiya Prezidenti Vladimir Putinlə Azərbaycan rəhbəri İlham Əliyev arasında telefon danışığı təsadüfi deyil.** Ekspertin sözlərinə görə, telefon danışığına qədər regionda baş vermiş hadisələrə qısa nəzər saldığımızda təxmini belə mənzərə yaranır: ”Türkiyə prezidenti öncə Belçikaya NATO dövlət və hökumət başçılarının sammitində iştirak etmək üçün səfər etdi. Səfər çərçivəsində Rəcəb Tayyib Ərdoğan Fransa Prezidenti Makron, ABŞ Prezidenti Bayden və NATO üzvü olan digər dövlət və hökumət nümayəndələri ilə görüşlər keçirdi. Ərdoğan Brüsseldəki səfərini başa vurduqdan sonra birbaşa Azərbaycana Bakıya, 15 iyunda isə Füzuli və Şuşaya səfər etdi. Səfər çərçivəsində Şuşa Bəyannaməsi imzalandı. Bəyannamə Qars müqaviləsini xatırlatmaqla yanaşı müasir dövrə uyğun olaraq iki qardaş dövlət arasında siyasi, iqtisadi, mədəni, hərbi və s. sahələrdə əməkdaşlığın ən üst səviyyəyə qalxmasına şərait yaratmış oldu. Bu bəyannamə ilə Azərbaycan özünə qarşı yönəlmiş xarici təhdidlərin qarşısını almağı bacardı. Həmçinin, Ərdoğanın jurnalistlərin suallarına cavab verərkən Azərbaycanda türk hərbi bazalarının qurulmasının mümkünlüyünü bildirdi. Türkiyə liderinin Milli Məclisdə çıxışı və verdiyi mesajlar da Rusiya tərəfindən diqqətlə izlənildi. Rusiya başa düşdü ki, Türkiyə regionda Moskvanın təkbaşına dominant hüququ əldə etməsinə imkan vermək istəmir. Təbii ki, Rusiya bundan çox narahatdır. Əlavə olaraq Ermənistandakı seçkilərdə Nikol Paşinyanın partiyası qalib oldu. Moskva yaxşı dərk edir ki, Paşinyanın hakimiyyətə gəlməsi Rusiyanın maraqlarına ziddir. İranda da hakimiyyət dəyişdi. 2018-ci ildə, Donald Trampın İranla bağlı siyasətində sərtləşmə baş verəndə Kreml Tehranın arxasından çəkildi. Ona görə də İranın yeni rəhbərliyi Rusiyaya etibar etmir”.

Ekspert vurğulayıb ki, baş vermiş bu proseslərin fonunda Rusiya Prezidenti Vladimir Putin vəziyyətin Rusiya üçün nəinki regionda, eyni zamanda dünyada ürəkaçan olmadığını anlayır: ”Rusiya Cənubi Qafqazda mövcudluğunu gücləndirməyə deyil, qorumağa çalışır. Rusiya yaxşı başa düşür ki, post-sovet məkanında artıq dominantlıq etmək çətindir. Onun qarşısında NATO-da gücünə görə ikinci yerdə dayanan Türkiyə var. 12 iyunda Ermənistanın 15 terrorçu qarşılığında Ağdamda basdırdığı 97 min tank və piyada əleyhinə minanın xəritəsini Azərbaycana Gürcüstan vasitəsi ilə təhvil verməsi isə Rusiya üçün ciddi zərbə oldu. Rusiya Türkiyənin regionda varlığına mane ola bilməsə də, öz varlığını qorumağa çalışır”.

**İsmayıl Qocayev**



## “Səudiyyə Ərəbistanı siyasi mübarizəmizi daim dəstəkləyib"

### “Əməkdaşlığımız regionda sabitliyi təmin edir və bəyənilir”

**Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramovun Səudiyyə Ərəbistanı Krallığında rəsmi səfərdədir.**

Ceyhun Bayramov Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün nəticələri və 44 günlük Vətən müharibəsindən sonra regionda yaranmış vəziyyət barədə Səudiyyə Ərəbistanı tərəfini məlumatlandırıb. Nazir, həmçinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan yenidənqurma işləri və həyata keçirilən infrastruktur layihələrindən danışaraq, dost Səudiyyə Ərəbistanını da bu prosesdə iştiraka dəvət edib.

Ölkələrimiz arasında turizm sahəsində əməkdaşlığa toxunan nazir Ceyhun Bayramov qeyd olunan sahədə pandemiyadan əvvəl müşahidə olunan müsbət dinamikanın gələcəkdə də davam etdirilməsinin əhəmiyyətini bildirib.

**Politoloq Tofiq Abbasov ”Şərq”ə açıqlamasında tərəflər arasındakı münasibətlərdən danışıb:** ”Səudiyyə Ərəbistanı həm ikitərəfli münasibətlərdə, həm İƏT daxilində Azərbaycanın siyasi mübarizəsini daim dəstəkləyib. Həmçinin bizim OPEC+ formatına qoşulmağımız əlaqələrimizi daha da gücləndirir. İntensiv məsləhətləşmələrimiz, fikir mübadilələrimiz olur. Eyni zamanda ölkəmiz Səudiyyə Ərəbistanın bəzi problemlərinin həlli istiqamətində stabilləşdirici rol oynayır. Odur ki, həmin dövlətin bizim köməyimizə ehtiyacı var. Əməkdaşlığımız regionda sabitliyi təmin edir və bəyənilir”.

**Kənan**

# Kreml “döyüşü” uduzduğuna görə çox aqressivləşib

## “Rusiyanın Ermənistan parlamentində cəmi “34 yeri” var, bu da parlamentin üçdə biridir”

Xəbər verdiyimiz kimi Ermənistanda keçirilən növbədənkənar parlament seçkilərindən sonra Xankəndidəki separatçı tör-töküntülər arasında vəziyyət kəskinləşib. Bir qrup erməni meydana toplaşaraq baş separatçı Araik Arutyunyanın "istefasını" tələb ediblər. Ermənilərin Araikə qarşı kəskin çıxışlarına səbəb onun iyunun 20-də seçki günü İrəvanda Paşinyanın lideri olduğu "Mülki müqavilə" partiyasının seçki qərargahında görünməsi olub.

Qurma rejimin ”təhlükəsizlik şurasının katibi” Vitali Balasanyan Arutyunyanın yerini tutmağa çalışır. Xüsusilə İrəvanda Paşinyanın hakimiyyətə gəlməsi revanşistləri məcbur edir ki, Xankəndidə Paşinyanın ən sadiq silahdaşı olan Arutyunyanı sıradan çıxartsınlar. Ekspertlər Xankəndi mitinqlərinin təşkilini yeni hökumətə qarşı hücumların başlanğıc nöqtəsi hesab edirlər. Erməni siyasi şərhçi Tevos Arşakyanın ”köhnə qvardiya” asanlıqla təslim olmayacaq. Paşinyanı çətin günlər gözləyir” açıqlaması yaxın gələcəkdə yeni iğtişaş və qarışıqlığın gözlənilən olmasından xəbər verir. Rusiyalı tarixçi, hərbi ekspert Oleq Kuznetsovun açıqlaması da Arşakyanın səsləndirdiyi fikirləri bir növü təsdiqləyir: ”İndi bir çox xarici politoloqu düşündürən bir sual qalır: Koçaryanın 2018-ci ilin yazında eksprezident Sarkisyana qarşı baş tutan hiyləgər ”Paşinyan planı”na oxşar bir planı varmı? Yəni Robert insanları səsvermənin nəticələrinin saxtalaşdırılmasına inandırıb, seçkinin qeyri-legitimliyi bəhanəsilə hakimiyyəti devirmək üçün küçələrə çıxara bilərmi? Hesab etmirəm ki, bu, baş verə bilər. Koçaryan Ermənistanda bütün sosial-siyasi potensialını səfərbər edərək növbədənkənar parlament seçkilərində iştrak etdi. Bu onun maksimum gücü idi. Amma Koçaryanın bir gizli silahı da var. O, hərbi çevrilişə hazırlaşa bilər”.

**Seçkidən sonra yaşanan prosesləri ”Şərq”ə dəyərləndirən siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev deyib ki, Paşinyanın seçkini udması Rusiyanın Ermənistan siyasətinin iflası deməkdir. Politoloq vurğulayıb ki, Rusiya kifayət qədər təxribatçılıqla məşğul olsa da, istiqaməti dəyişə bilmədi:** ”Paşinyan səs çoxluğu ilə parlamenti ələ aldı. Rusiyanın Ermənistan parlamentində cəmi ”34 yeri” var. Bu da parlamentin üçdə biridir. Rusiya bu ”döyüşü” uduzduğuna görə daha çox aqressivləşib. Moskva başa düşür ki, Ermənistan tədricən Rusiyanın müstəmləkəsindən çıxmaqdadır. İrəvanın üzü Qərbə çevrilib. Xankəndidəki bütün qarışıqlığın arxasında Kreml dayanır. Separatçı Arutyunyanın Paşinyanın tərəfində yer alması, rusların nəzarəti altında sadəcə 35 min erməninin yaşadığını etiraf etməsi, Rusiyanın yalanını ortaya çıxartması Moskvanı pis vəziyyətdə qoydu. Rusiya hər vəchlə Qarabağda mövqeyini itirməməyə çalışır. Şuşa Bəyannaməsi də Moskvanı ciddi narahatlığa sövq edib. Rusiya Qarabağ ermənilərinin başında Balasanyanı görmək istəyir. Çünki özlərinə sadiq separatçının əliylə təxribat törətməyi planlaşdırırlar. Məqsəd isə Qarabağı yenidən işğal etməkdir. Amma əminik ki, nə Azərbaycan, nə də Türkiyə Rusiyaya belə şans verəcək”.



*“Rusiya istəsə də, istəməsə də dağılmağa, parçalanmağa doğru irəliləyir. Ermənistandakı seçkinin nəticələri bu prosesin ən təsirli elementidir”*

**C.Nuriyevə görə, Rusiyanın bir çox regionda, həmçinin Cənubi Qafqazda uduzması Kremli çox hiddətləndirib:** ”Ötən gün Böyük Britaniya gəmisinə ruslar tərəfindən atılan atəş də bu aqressiyanın təzahürüdür. Rusiya istəsə də, istəməsə də dağılmağa, parçalanmağa doğru irəliləyir. Ermənistandakı seçkinin nəticələri bu prosesin ən təsirli elementidir. Bundan sonra Kremlin bütün cəhdləri boşa çıxacaq. Düzdür, son zamanlar fəal siyasət görüntüsü yaradılır. Hətta ölkəmizdə də Kremlə bağlı qruplar xüsusi aktivlik nümayiş etdirirlər. Lakin Rusiyanın əvvəlki nüfuz və mövqeyindən əsər-əlamət qalmayıb”.

**İsmayıl Qocayev**




# Mediada yeni islahatlar başlayıb

## Azərbaycan jurnalistləri beynəlxalq təcrübəni öyrənir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin və "ADA" Universitetinin İxtisasartırma Proqramlarının birgə təşkilatçılığı ilə "Mediada islahatlara doğru" mövzusunda silsilə seminarlar davam edir. Xatırladaq ki, seminarlara iyunun 14-dən başlanılıb. Birgə seminarın təşkil olunmasında məqsəd media nümayəndələri arasında təcrübə mübadiləsinin aparılmasıdır.

Seminar silsiləsinin açılış mərasimində çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov, ADA Universitetinin prorektor müavini Aygün Hacıyeva seminarın əhəmiyyətini vurğulayaraq qeyd etmişdilər ki, seminarların təşkilində məqsəd müasir media mühitinə birgə nəzər salmaq, media sahəsində innovativ təcrübələri araşdırmaq və mövcud media nəzəriyyələrinə uyğun ölkədə media islahatları prosesinə təkan verməkdir. Seminarın ilk günü "Media"nın icraçı direktoru Ə.İsmayılov media nümayəndələri ilə "Media haqqında" qanun layihəsini müzakirə etdi. Mediada yeni imkanlar və istiqamətlər mövzusunda müzakirələr aparıldı. Qanun layihəsində yer alan müddəalar barədə media nümayəndələrinə ətraflı məlumat verildi. Bildirildi ki, yeni qanun layihəsi Media sahəsində ictimai münasibətlər sistemini tənzimləyən yeni normativ hüquqi aktın hazırlanmasını nəzərdə tutur. Qanun layihəsinin əsas məqsədi bütün media subyektlərinin, o cümlədən yeni yaranmış onlayn media subyektlərinin də fəaliyyətinin və hüquqlarının müəyyən olunmasıdır. Seminarlar davam edir və maraqlı keçən müzakirələrdə yerli media qurumlarının rəhbərləri, jurnalistlər, onlayn mediada çalışan həmkarlarımız iştirak edirlər. Həmçinin xarici media - "Əl-Cəzirə" və "Haber Global"ın mütəxəssislərinin iştirakı da nəzərdə tutulur ki, bu da təcrübə mübadiləsi baxımından faydalıdır. Qeyd edək ki, "Əl-Cəzirə" Media İnstitutunun nümayəndə heyətinin iştirakı ilə bir seminar artıq keçirilib.

Bu barədə az sonra məlumat verəcəyik. Hələliksə seminardakı müzakirələrə nəzər salaq.

**Dövlət qurumlarının media ilə əməkdaşlığı**

Seminarda media nümyəndələrinin marağına səbəb olan hal şübhəsiz ki, Azərbaycan Prezidentinin köməkçisi - Azərbaycan Prezidenti Administrasiyasının Xarici siyasət şöbəsinin müdiri Hikmət Hacıyevin seminar iştirakçıları qarşısında ustad dərsi ilə çıxış etməsi idi. Seminarın bu məzmunda təşkilində məqsəd dövlət və ictimai sektor qurumlarının media subyektləri ilə əməkdaşlığının genişləndirilməsi və qarşılıqlı kommunikasiya əlaqələrinin təkmilləşdirilməsi, eləcə də müasir media mühitində ictimaiyyəti məlumatlandırma mexanizmlərinin daha səmərəli qurulması idi. Seminarda ADA Universitetinin media sahəsi üzrə yerli və xarici tədqiqatçıları ilə yanaşı, biznes sektorunun mütəxəssisləri və ölkənin multimedia platformasının aparıcı üzvləri ilə panel müzakirələr təşkil edib, interaktiv müzakirələr zamanı mətbuat xidməti rəhbərləri "İctimai əlaqələr şöbəsinin təşkilatdakı məqsədi və rolu", "Kommunikasiya planı və gündəlik media təməsləri: proaktiv və reaktiv strategiyalar", "Böhran vəziyyətlərində kommunikasiyanın qurulması" kimi mövzularda fikir mübadiləsinə qoşularaq, müasir media mühitindəki çağırışlara yeni həll yolları axtarıblar.

**Mediamızın xarici əlaqələri genişlənməlidir**

Qeyd etdik ki, "Əl-Cəzirə" Media İnstitutunun nümayəndə heyətinin iştirakı ilə bir seminar artıq keçirilib. Seminar çərçivəsində ADA Universiteti ilə "Əl-Cəzirə"Media İnstitutu arasında anlaşma memorandumu imzalanıb. Sonra "Əl-Cəzirə"nin baş müxbiri Resul Serdar və meneceri Rene Ode "Xəbərlər şöbəsinin səmərəli idarəedilməsi" , "Gündəmi necə qurmalı: praktiki yanaşmalar" mövzularında məruzə ilə çıxış ediblər. "Media" Agentliyində keçirilən görüşdə isə Aljazeera Media İnstitutunun Yeni layihələr üzrə meneceri Montaser Maray Azərbaycana səfərdən məmnunluq ifadə edərək, Media Agentliyi və "ADA" Universitetinin İxtisasartırma Proqramlarının birgə təşkilatçılığı ilə keçirilən silsilə seminarların əhəmiyyətinə toxunub. Bildirilib ki, media sahəsində mövcud problemlərə fərqli perspektivlərdən yanaşmaq üçün təcrübə mübadiləsinin aparılması vacibdir.

**Seminar iştirakçısı həmkarlarımızın fikirlərini öyrəndik. İctimai Televiziyanın İctimai-siyasi Proqramlar Departamentinin direktor müavini Nigar Sabirqızı seminarlar barədə "Şərq"ə danışdı. Onu da qeyd edək ki, Nigar Sabirqızı "Əl-Cəzirə" Media İnstitutunun sertifikatı ilə təltif edilib:**

- ADA Universiteti ilə Medianın İnkişafı Agentliyinin birgə təşkil etdiyi "Mediada islahatlara doğru" qarşısında medianın məsuliyyəti və maarifləndirici missiyası Bu və bu kimi digər məsələlər çox sadə şəkildə təlimçilər tərəfindən izah olunur, sərbəst diskussiya şəraitində müzakirə edilir.

Bu kimi proqramlar gələcəkdə də davam etdirilə bilər. Düzdür, ilk təlimlərdə əsasən, media rəhbərləri iştirak edir. Amma qarşıda müxtəlif istiqamətlər üzrə uyğun əməkdaşlar cəlb oluna bilər. Bunlardan biri, məsələn, beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə qəzet tərtibatçıları üçün təlimlər ola bilər.

**Seminarın daha bir iştirakçısı, media mütəxəssisi, populyar aparıcı, Turan İbrahimov keçirilən tədbirin faydalarını diqqətə çatdırdı:**

- Seminarlar haqqında istənilən halda ancaq və ancaq müsbət fikirlər bildirə bilərəm. Çünki çox gözəl təşəbbüsdür. Ora Azərbaycanda fəaliyyət göstərən, ictimai rəyə təsir imkanı olan media quruluşlarının rəhbərləri, aparıcı əməkdaşları dəvət olunub. Və onlara müasir medianın tələbləri nələrdir, həm də bundan sonra dövlətin media siyasətinin nədən ibarət olacağını çatdırmaq qərarlığı var. Bunu hiss edirik. Müsahibələrinin birində "Media"nın icraçı direktoru Əhməd müəllim də bildirmişdi ki, bu seminarlar vasitəsilə həm də dövlətin media sahəsində görmək istədiyi islahatların nədən ibarət olması çatdırılacaq. Biz də silsilə seminarlarında iştirak edənlərdən biri də mənəm. Seminarda ilk müsbət amil kimi media sahəsində tanınmış simaların bir arada olmasını qeyd edə bilərəm. İlk baxışda "bu qədər təcrübəli insanların təlimə nə ehtiyacı var" sualı yarana bilər. Amma nə qədər təcrübəli olsaq da, seminarda çıxışçıları dinlədikcə, bir daha Sokratın "Mən indi bilirəm ki, mən heç nə bilmirəm" sözlərini xatırlamamaq olmur. Əslində, bu, təlimdən çox, fikir mübadiləsidir. Çünki media sahəsində mövcud problemləri müzakirə edir, bundan çıxış yolları ilə bağlı təkliflər səsləndiririk. Seminar çərçivəsində xüsusilə "Əl-Cəzirə" kanalının ingilis bölməsinin xüsusi müxbiri Rəsul Sərdar Ataşın təlimlərini vurğulamaq istəyirəm. Rəsul bəy beynəlxalq jurnalistika barədə müfəssəl bilgilər verdi, öz təcrübəsini bizimlə bölüşdü. Onun bir jurnalist kimi lentə aldığı müxtəlif insan hekayələri məni xüsusilə təsirləndirdi. Onun dilindən bir jurnalistin qarşılaşdığı ən çətin vəziyyətlər və ondan çıxış yolları barədə təcrübələrini bizimlə bölüşməsi də bir aparıcı kimi mənə çox maraqlı idi. Təlimin sonunda "Əl-Cəzirə" Media İnstitutunun sertifikatını alanlardan biri də mən oldum. Bu sertifikat beynəlxalq sənəddir və düşünürəm ki, ona sahib olmaq mənə gələcəkdə müəyyən üstünlüklər verəcək. Həm bu baxımdan, həm də mediaya qazandıracağımız yeniliklər baxımından bu cür seminarları yararlı hesab edirəm.








## Seminarın iştirakçıları təəssüratlarını "Şərq"lə bölüşüb

**Türküstan.info saytının baş redaktoru Aqil Camal seminarların müasir medianın tələblərinin öyrənilməsində əhəmiyyətini vurğuladı:**

- Bildiyiniz kimi Medianın İnkişafı Agentliyinin yaradılması ilə Azərbaycanda həm dövlətin media siyasətinə, həm də ümumən, ölkədə media camiəsinin yeni dövrdə fəaliyyətinə yeni baxış prosesi başlayıb. Sonuncu elan olunan, qəzetlər və saytlarla bağlı MEDİA-nın müsabiqəsi də bu yeni yanaşmanın əhəmiyyətli təzahürüdür.

Bu işlərlə paralel olaraq media təmsilçiləri üçün seminarların təşkili, bu seminarlara yerli və xarici ekspertlərin təlimçi kimi dəvət olunması hesab edirəm ki, başlanmış işə əlavə nəzəri-praktik dəstək xarakteri daşıyır.

Mən də seminarlarda iştirak edirəm. Xüsusən, ənənəvi və yeni elektron media ilə bağlı dünya təcrübəsinin öyrənilməsi, medianın təməl prinsipləri, cəmiyyət bunu anlayırıq və görürük. Həm də təbii ki, müxtəlif səpkili mühazirələr zamanı media ilə bağlı bəzi məsələləri bir daha xatırlayırıq. Müəyyən məsələlərlə bağlı şəxsən mən, baxış bucağımda hansı korrektələrin vacibliyini anlayıram. Bir də ki, təkrar biliyin anasıdır. Ümumi götürdükdə, geniş mənada bir yenilik yoxdur. Çünki orda gənclərlə yanaşı, Azərbaycan jurnalistikasının, qəzetçiliyinin yeni dövrünün əsasını qoymuş şəxslər, həmçinin Azərbaycan televiziyasında xəbərçilikdə, xəbər istehsalında illərlə konkret rol oynayan insanlar iştirak edir. Və onlar da dövlət media islahatlarıyla nəyə nail olmaq istəyir, gözəl bilirlər. Bununla yanaşı biz də öz bilik və təcrübəmizdən əlavə müəyyən situasiyalarla bağlı reflekslərə kənardan baxmaq imkanı qazanırıq. Düşünürəm ki, "Əl-Cəzirə" və digər xarici xəbər mərkəzlərinin, institutlarının təcrübələrini bölüşməsi də çox faydalıdır. Seminarlar iyulda bitəcək. Seminar bitəndən sonra mediamızın fəaliyyətlərində bu silsilə seminarların təsiri olacaq. Həm peşəkarlıqda, həm də digər məqamlarda bu özünü büruzə verəcək.

**Məlahət Rzayeva**






# Ona fanatik deyirdilər

## Gözün aydın bəy, Türk birliyi artıq yaranır



## Silahdaşları Elçibəyin ad gününü məzarı başında qeyd etdilər

2019-cu ilin Yanvar ayıdır. Universitet rəhbərliyi biz tələbələri şəhidlərimizi ziyarət etməyə aparır. Bütün fakültə İncəsənət Gimnaziyasının qarşısında toplaşıb. Oradan Şəhidlər Xiyabanına piyada getməliyik. Hər kəs gəldikdən sonra yola düşürük. Yeraltı keçidlə yolun o biri tərəfinə keçib, ünvana doğru irəliləyirik. Cərgə ilə Birinci Fəxri Xiyabanın yanı ilə addımlayırıq.

Qəfildən başımı sağa çevirirəm və onu görürəm. Ayaq üstə dayanıb, əllərini üst-üstə qoyub, yola baxır. Şam ağaclarının əhatəsindəki bu heykəl günəş kimi şəfəq saçır. Hə, odur, Azərbaycanın eksprezidenti Əbülfəz Elçibəy.

Mən onunla eyni dövrdə yaşamamışam. Vəfatından 3 ay sonra dünyaya gəlmişəm. Adını nə məktəbdə, nə də evdə eşitmişəm. Ağlım kəsəndə özüm öyrənib, tanımışam. Bilmişəm ki, dünyadan millətini son nəfəsinə qədər sevən, xalqı üçün ən gözəl çağlarını qurban verən Əbülfəz Elçibəy keçib.

Hələ yeni-yeni tanıyıb, dərk etdiyim adamın heykəlini görəndə sevincimi gizlədə bilmədim. Yaşımın azlığı ilə əlaqəli bir məlumatsızlıq, həm də rayonda böyüməyimdən qaynaqlanan paytaxta yadlıq var idi. Bu üzdən Bəyin məzarının Bakıda olduğunu bilmirdim. Ona görə həm təəccübləndim, həm də sevindim. Şəhidlərimizdən sonra Elçibəyi ziyarət etdik. O gün qərar verdim ki, vaxt tapdıqca zaman-zaman bura gəlib, Bəyə baş çəkəcəm.

Hə, bu gün-2021-ci ilin iyununda yenə Birinci Fəxri Xiyabandayam. İyirmi dörd iyun Əbülfəz Elçibəyin doğum günüdür. Əlimdəki iki qərənfil ilə qapıdan içəri daxil olub, onun məzarına tərəf irəliləyirəm.

Çatan kimi Elçibəyin qardaşı oğlu, "Bəyaz Hərəkat" təşkilat komitəsinin sədri Hürrü Əliyev ilə qarşılaşıram. Hürrü bəylə salamlaşıb, bir-iki dəqiqə söhbət edirik. O deyir ki, Elçibəy təkcə Azadlıq Hərəkatının lideri, eks-prezident deyil, həm də bir məfkurə idi:

"Elçibəy türk millətinin milli-ideoloji savaşının müasir tariximizdə ən öndə gedən davamçısı idi. Bugünkü və dünənki gəncliyin də Elçibəy eşqi onun millətinə olan sevgisinə və həmin yolda, davada, milli-ideoloji sistemdə olduğuna görədir. O yolda canını fəda edən bir lider kimi görüldüyü üçün sevilir".

Qeyd edim ki, Hürrü bəy Elçibəyə sima olaraq çox oxşayır. Hətta onun kopyasıdır demək olar.

Söhbəti tamamlayıb əlimdəki qərənfilləri yerinə qoymaq üçün Bəyin məzarına tərəf gedirəm. Kimlərin əklil göndərdiyinə də nəzər yetirirəm. Buradakı iki çələngin Elçibəy insitutu və "Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası" tərəfindən göndərildiyini görürəm.

Yanımdakı qızla və Elçibəyin qardaşının nəvəsi Aydan xanımla söhbətləşirik. Digər partiyalardan kimlərin gəldiyini soruşuram. Aydan xanım isə hələ kimsəni görmədiyini söyləyir. Sonradan məlum olur ki, Müsavat Partiyasının rəhbərliyi və üzvləri bir azdan burada olacaqlar.

Hürrü bəy sağollaşıb gedir. Az sonra Aydan xanım da xiyabanı tərk edir. Mən də tək qalıram. Dərhal özümə iki həmsöhbət tapıram. Orta yaşlı iki gülərüz xanım Bəy haqda danışırlar. Yaxınlaşıb söhbət edirəm. Öncə Elçibəyin qohumları olub-olmadığını aydınlaşdırıram.

**- Siz Bəyin yaxınısınızmı?**

- Ona qəlbən yaxınıq. Qan bağı ilə deyil.

- Hamımız onun qəlbən qohumuyuq *(digər xanım dillənir- red).*

**- Elədir. Bəs o xanım Bəyin ailəsindəndirmi? *(məzarın yaxınlığında dayanan qadını göstərirəm-red).* Sima olaraq çox bənzəyir.**

- Bəli. Qardaşı qızıdır. Amma adını unutdum. Onun bir bacısı da var. İsmi Səadətdir.

**- Çox sağ olun.**

*Dərhal həmin xanıma tərəf gedirəm. Özümü təqdim edirəm. Bu, bir az əvvəl də bəhs etdiyim Sələmə xanımdır.*

Qürurla əmisindən danışır: "Elçibəy illər öncə türk birliyindən, Turandan danışanda, ona fanatik deyirdilər. Söyləyirdilər ki, bunları röyalarda görür. Amma indi onun əkdiyi toxumlar cücərib. Türk birliyi yaranır. Elçibəy türk dünyasının sərkərdəsi idi. Əmimi 1975-ci ildə millətçilik üstdə həbs etdilər. Dedilər sən tələbələr arasında türkçülük ideyasını yayırsan. Elçibəy deyirdi, mənim də millətimin bir dövləti olmalıdır, biz əsarətdən çıxmalıyıq. Onun ideyası demokratiya, azadlıq idi. Gənclərimizin gələcəyini xoş görmək istəyirdi. O, BMT-də öz dilində çıxış etdi. Millətini bütün dünyaya tanıtdı. Bildirdi ki, mənim dilim türk dilidir".

**Sələmə xanım az öncə duyduğumuz məsələdən də bəhs edir:**

"Mən həmkarlarda şöbə müdiri idim. O, zaman Elçibəy prezident idi. Lakin işdə kimsə bu həqiqəti bilmirdi. Yalnız mühasibimizin məlumatı var idi. İşdən çıxarılmalar oldu. Məni də işdən azad etdilər. Nəsə demədim. Həmkarlara yenidən müraciət etdim ki, işə qaytarın. Onlar da söylədi ki, 15 gündən sonra gələrsən. Onda da dedi ki, yer yoxdur. Prezident ailəsindən olduğum halda işdən çıxarıldım. Elçibəy heç müdaxilə etmədi. Söylədi ki, acından ölmürsünüz, qaçqınlarımız, köçkünlərimiz, evsiz-eşiksiz qalan insanlarımız var, onlara iş versinlər, ailələrini saxlasınlar".

**Sələmə xanım deyir ki, Elçibəy təqiblərə məruz qalanda onların da evində axtarış olub:** "Gəldilər, bizi də apardılar. On yeddi yaşımız ancaq olardı. Uşaq idik. Yenə də nəsə demədik. İndi "Elçibəy" deyənlər yaranıb, onun sözləri öz təsdiqini tapır. O deyirdi ki, Qarabağa gedən yol cənubdan keçir. 40-45 milyon millətin qarşısında erməni, rus nə deyə bilər? El bir olsa, qabağında kim durar? Elçibəy haqda çox deyilib, yazılıb. Təbii ki, biz onunla bağlı daha yaxşı bilirik. İndi Kələkidə tədbir keçirilir. Müxbirlər ora getsələr, çox yaxşı qarşılanarlar".

"Hamımız bilirdik ki, bu gün siz, yaxınları burada olacaqsınız. Ona görə elə Bəyin məzarı başında yığışdıq" deyirəm.

*Müsahibim mehriban bir səslə cavab verir:*

"Səni nəzərdə tutmuram, qızım. Sən gəncsən. Bir az getmə imkanı olan jurnalistləri deyirəm. Bilirsən, Elçibəy həmişə söyləyirdi ki, estafeti gənclərə ötürmək lazımdır".

Sələmə xanım deyir ki, yaxın zamanda Elçibəyin bacısı dünyasını dəyişib. Onun yas mərasiminə getməlidir. Bir başqa xanımı gözləyir. O əsnada söhbətə davam edirik. Heyif, maraqlı dialoqumuzu telefona qeyd etməmişəm. Çox detallarla yaza bilmirəm.

*Və həmin xanım gəlir. Özü də ağlaya-ağlaya. Məzara çatmamış göz yaşlarına boğulur. Sələmə xanım da ona tərəf gedir. Qucaqlaşıb ağlayırlar. Həmin qadın Sələmə xanıma muraciət edərək deyir:* "Az qalıram hayqırım ki, niyə bele tez gedirdin? Ürəyim yanır".

Mən də kövrəlirəm. Ağlamamaq üçün özümü güclə saxlayıram.

Bir cavan oğlan yaxınlaşır. Əlində türk və Azərbaycan bayrağı var. Saygı ilə dayanır və bozqurd kimi ulamağa başlayır. Əvvəlcə qəribə görünür. Sonra onun Bəyə salam verdiyini başa düşürəm. Gözü yaşlı qadınla danışır: "Status yazdım ki, Atatürkün bozqurdunun doğum günüdür. İnşallah Məhəmməd Əmin Rəsulzadə də bir gün öz Vətənində uyuyacaq".

**"Güney Azərbaycan Demokratik Türk Birliyi"nin sədri Əjdər Tağızadə də Elçibəydən bəhs etdi:** "Mən Kələki gecələrindən öncə və sonra ona yaxın olan adamlardan biri olduğum üçün şərəf duyuram. Məhəmməd Əmin Rəsulzadə, Mustafa Kamal Atatürk, Əbülfəz Elçibəy daim yaşayacaq. Baxmayaraq ki, indi burada 100 nəfərik. Əziz polislərimizi də bizi dinləyirlər, onlara da, dövlətimizə də eşq olsun. Elçibəyin ruhu hər zaman var olacaq. Onunla söhbətlərimizdə M.Ə.Rəsulzadədən danışırdıq. Bir dəfə qayıtdı ki, Əjdər, o, böyük adamdır da. Məhəmməd Əmin Rəsulzadə çox böyük adamdır".

*Bir xanım insanların içərisində diqqətimi çəkir. Gözlərinin içi gülür. Yaşlı, mülayim qadındır. Düz yanımda dayanıb. Onunla həmsöhbət olmaq istəyirəm. O, Həmidə Əlisoydur.*

*Elçibəylə bağlı bildiklərindən söz açır:* "Bir dəfə iki qadın ad günündə poçta gedib, Bəyə, teleqram göndəriblər ki, sizi doğum gününüz münasibətilə təbrik edirik. Sonra fikirləşiblər ki, görəsən, teleqram ona çatdımı? Bir başqa xanım gəlib ki, teleqram çatıb. Bu ikisi də soruşub ki, hardan bilirsən? Qayıdıb ki, Elçibəy qəzetdə ismarış göndərib: "Məni ad günümdə təbrik etməyin. Ancaq milli bayramlarda qutluyun".

*Sonra Həmidə xanım Elçibəyin şeirini səsləndirir:*

**"Bir işıktım, bilməm hardan ulduzlara axmışam.**
**Bir işıktım, bir göy qatdan, bir ağ qata axmışam.**
**Bilməm nəydim bir göy qatdan asimana axmışam.**
**İşıq olub süzə-süzə ulduzlara baxmışam".**

*Doğum günün qutlu olsun, Bəy!*

**Samirə Ərəblinski**

# Ermənistanın daha seçki bəhanəsi qalmadı

## "Bütün istiqamətlərdə razılıqların icrasına dair sürətli işlər başlamalıdır"



**Azərbaycan Prezidenti İlham Əliyevlə rusiyalı həmkarı Vladimir Putin arasında telefon danışığı baş tutub. Bu barədə Kremlin mətbuat xidməti məlumat yayıb.**

Söhbət zamanı Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il razılaşmalarının reallaşdırılmasının praktiki tərəfləri nəzərdən keçirilib. Cənubi Qafqazda iqtisadi və nəqliyyat əlaqələrinin bərpası üzrə üçtərəfli işçi qrupun fəaliyyətinin aktivləşdirilməsinə xüsusi diqqət yetirilib.

Həmçinin, ikitərəfli münasibətlərin gündəliyinə daxil olan məsələlər müzakirə olunub. Dövlət başçıları bundan sonra da Azərbaycan - Rusiya strateji tərəfdaşlığının möhkəmləndirilməsi niyyətində olduqlarını ifadə ediblər.

Bununla yanaşı, söhbət zamanı müxtəlif səviyyələrdə təmasların davam etdirilməsi razılaşdırılıb.

**Millət vəkili Asim Mollazadə "Şərq"ə bildirib ki, dövlət başçılarının telefon danışığı müvafiq bəyanamələrin icrasına həsr olunub:** "Həm atəşkəsə riayət olunması, həm də atəşkəsdən sonra müvafiq kommunikasiyaların bərpasına dair məsələlər və əldə olunan razılıqların icrası müzakirə mövzusu idi. Azərbaycan və Rusiyanın ikitərəfli münasibətlərindən də danışılıb. Lakin əsas məsələ tezliklə hər bir istiqamətdə əldə edilən razılıqların icrasıdır. Çünki Ermənistan indi seçkiləri və ölkədaxili problemləri bəhanə gətirərək, Ermənistan-Azərbaycan sərhədinə keçib, bəzi təxribatlara yol verir".

**Parlament üzvünün sözlərinə görə, vacib məsələ ondan ibarətdir ki, Azərbaycanla Rusiya bütün razılaşmaların həyata keçməsi üçün müvafiq addımlar atmalıdır:** "İndiyə qədər yaradılan işçi qruplarının çalışmasından nailiyyətlər gözləyirik. Fikrimcə, bu telefon danışığından sonra proseslər kifayət qədər sürətlənəcək. Çünki Ermənistanın seçki bəhanələri qaldırılıb. Ermənistan rəhbərliyi bilməlidir ki, seçkilərin nəticəsi ilk növbədə erməni xalqının sülh istəkləri və sülhə səs verməlırindən ibarət oldu. Yəni revanşist qüvvələrə, müharibə cinayətləri törətmiş namizədlərə səs verilmədi. Ona görə də bütün istiqamətlərdə razılıqların icrasına dair sürətli işlər başlamalıdır. Bunun müsbət nəticəsi həm Azərbaycan, həm də Rusiyanın maraqlarına uyğundur".

**Yeganə Bayramova**

## Qərblə əməkdaşlıq mövqelərimizi gücləndirəcək

### "Avrointeqrasiya kursunun həyata keçirilməsi Türkiyə vasitəsilə daha da uğurlu olacaq"



**"Qarabağ müharibəsindən sonra Qərblə əməkdaşlığımız post-müharibə dövrünə uyğun olaraq reallaşdırılır".**

**Bunu "Şərq"ə açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib.** Analitik bildirib ki, NATO və Avropa İttifaqı ilə əməkdaşlıq və strateji cəhətdən yaxınlaşmaq kursu həyata keçirilir: "Bunun davamlı olması mütləqdir. NATO ilə əlaqələr yeni müstəviyə keçir. Prezidentin köməkçisinin bir müddət bundan əvvəl Brüsseldə NATO Baş katibi ilə görüşməsi, həmçinin Avropa İttifaqının prezidenti ilə danışıqları Azərbaycanla Qərb arasında yeni əməkdaşlıq mərhələsinin başlanmasıdır. Avropa İttifaqı ilə çərçivə sazişinin gələn il bağlanması istisna edilmir. Post-müharibə dövründə əvvəlki siyasi yanaşmalardan imtina edilməlidir. Türkiyə ilə Şuşa Bəyannaməsinin imzalanması da NATO və Qərbin maraqlarına cavab verir. Avrointeqrasiya kursunun həyata keçirilməsi Türkiyə vasitəsilə daha da uğurlu olacaq. Qərblə əməkdaşlıq Azərbaycanın mövqeyini daha da gücləndirəcək və Rusiyanın ölkəmizə qarşı təzyiqlərini neytrallaşdıracaq". Siyasi şərhçinin qənaətincə, Azərbaycan rəhbərliyinin Qərblə əmeşdaşlığa üstünlük verdiyi aydın görünür: "Avropa İttifaqı ilə çərçivə sazişi əlaqələrin inkişafına gətirib çıxaracaq. Ən əsası isə Rusiya Azərbaycanı öz orbitində olan təşkilatlara üzv etmək üçün ciddi cəhdlər etməyəcək".

**İsmayıl**

# "Cümhuriyyət adamı" gəlir

## "Şirməmməd müəllimin arxivini istəyənlər çoxdur, ancaq vermirəm"

Dünən Azərbaycan mətbuat tarixinin əvəzedilməz tədqiqatçısı, jurnalistikanın görkəmli simalarından olan böyük şəxsiyyət, pedaqoq, professor Şirməmməd Hüseynovun vəfatının ikinci ildönümü idi. Tədqiqatçı-alim 2019-cu ildə, 95 yaşında dünyasını dəyişib. Ötən il olduğu kimi bu il də professor məzarı başında yad edilib. Tələbələri, media nümayəndələri mərhumun ruhuna dualar oxuyublar.

> Ülkər Hüseynova: "Çünki hələ özüm araşdırma aparıram. Hamısını kitab halında nəşr edəndən sonra yığışdırıb Arxiv İdarəsinə təhvil verəcəm"

Şirməmməd Hüseynov 1924-cı ildə Şəkidə anadan olub. 1945-1950-ci illərdə ADU, filologiya-jurnalistika şöbəsində təhsil alıb. 1950-1954-cü illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Jurnalistika fakültəsinin aspirantura şöbəsinə qəbul olub. 1954-cü namizədlik dissertasiyası müdafiə edib. 1976-1988-ci illərdə Bakı Dövlət Universitetinin mətbuat tarixi kafedrasının müdiri vəzifəsində işləyib. Müasir jurnalistikamızın inkişafında misilsiz xidmətləri olan Şirməmməd Hüseynovun zəngin yaradıcılıq yolu hamıya yaxşı məlumdur. Gənc jurnalistlərin yetişməsində, püxtələşməsində böyük xidmətləri olan Şirməmməd müəllim elmi-pedaqoji fəaliyyətini ləyaqətlə, vicdanla, yorulmadan davam etdirib. O, hər zaman tələbələrlə müəllimləri bir komanda kimi ətrafında birləşdirə bilib. Daim həqiqətin, ədalətin, azad sözün tərəfdarı olub. Buna görə də təkcə elmi ictimaiyyətin deyil, sadə insanların da böyük hörmətini qazanıb. Ş.Hüseynov həm də fenomenal şəxsiyyət idi. 95 yaşında mükəmməl, çox güclü yaddaşa malik idi. Hər sözündə, söhbətində konkret mənbələrə, faktlara istinad edirdi, sitatlar gətirirdi. Professorun Azərbaycan Xalq Cümhuriyyətinin, Məhəmməd Əmin Rəsulzadə irsinin öyrənilməsində və təbliğində də xüsusi xidmətləri olub. Alim uzun illər milli mətbuatımızın qatı açılmamış səhifələrini arxivlərdən tədqiqatçı inadkarlığı ilə arayıb-axtarıb, üzə çıxararaq nəşr etdirib. Müəllifi olduğu kitabların böyük əksəriyyəti sanballı, ensiklopediya səviyyəsində olan əsərlərdir. Nəşrlərin hər biri istər alimlər, istər tələbələr, istərsə də oxucular üçün zəngin






xəzinə hesab olunur. Tanınmış jurnalistlər də sosial şəbəkədə Şirməmməd Hüseynovla bağlı qısaca fikirlərini bölüşüblər.

**Professor Qulu Məhərrəmli yazıb ki, Ş.Hüseynov namuslu həyatı, millət sevgisi və əsərləri ilə bir ləyaqət məktəbi yaratdı:** "O, Cümhuriyyət qığılcımından bir ocaq qaladı. Həmin tarixin və o tarixi yaradanların ruhunu bu günümüzə daşıdı. Millət yaddaşının keşikçisinə çevrildi. Professor Şirməmməd Hüseynovun vəfatından iki il keçir. Sevgi və ehtiramla anırıq!".

Mətbuat Şurasının sədri Əflatun Amaşov da qeyd edib ki, görkəmli mətbuat adamının vəfatından, cismani yoxluğundan iki il ötür: "Hər zaman bizimlədir o ali ruh. Baxışları, ideyaları, vətənpərvərliyi, ziyalılığı, alimliyi, pedaqoqluğu və nəhayət, jurnalist peşəkarlığı ilə örnək şəxsiyyətdir Şirməmməd Hüseynov. Şirməmməd müəllim zirvədir, etalondur. Allah sənə rəhmət eləsin, ruhu Azərbaycan olan Böyük insan".

Tədqiqatçı-alimin vəfat ildönümündə həyat yoldaşı, jurnalist Ülkər Hüseynova ilə də əlaqə saxladıq. **Alimin ömür-gün yoldaşı "Şərq"ə açıqlamasında Şirməmməd Hüseynovun vəfatından sonra ikinci kitabının işıq üzü görəcəyini söylədi:** "Şirməmməd müəllimin vəfatının birinci ildönümündə ona həsr etdiyim 350 səhifəlik "Sizdən bir də olmayacaq. Əlvida" kitabı nəşr edildi. Kitabda Azərbaycan mətbuatında Ş.Hüseynov haqqında yazılmış məqalələr toplanmışdı. Vəfatının ikinci ildönümünə də yeni kitab hazırlamışıq. Haqqında yazılanların toplusudur. "Cümhuriyyət adamı" adlı ikinci kitabı artıq çapa vermişəm. İndi çap mərhələsindədir. Siqnalları gəlir, yaxın günlərdə nəşr ediləcək. Bilirsiz, Şirməmməd müəllim haqqında tələbələri, həmkarları, tanışları yazmaqdan yorulmurlar. Elə tələbəsi var ki, müəllimi haqqında dəfələrlə yazır, amma doymur. Sağlıq olsun, ikinci kitab çıxanda sizə də göndərərəm, oxuyarsız".

**Ü.Hüseynova Şirməmməd Hüseynov haqqında növbəti əsərlərin nəşr olunacağının anonsunu da verib:** "Fikrimdə, planımda var. Şirməmməd müəllimin arxivində maraqlı məqalələr durur. Onları da toplayaraq nəşr etdirməyi düşünürəm. Çox zəngin arxivi var. Mənə müraciət edənlər, istəyənlər çox olur. Arxiv İdarəsindən də istəyiblər. Amma hələlik arxivi vermirəm. Çünki hələ özüm araşdırma aparıram. Hamısını kitab halında nəşr edəndən sonra yığışdırıb Arxiv İdarəsinə təhvil verəcəm. O qədər dəyərli arxiv materiallarını evdə saxlamağın mənası yoxdur".

**İsmayıl Qocayev**

# Kreml münaqişənin həllini istəsəydi, kənara çəkilərdi



**Putinin mesajları "5-ci kolon"un mövqelərini gücləndirməyə yönəlib**

"Rusiyanın həlledici töhfəsi ilə Dağlıq Qarabağda münaqişə dayandırılıb". Bu barədə Rusiya Prezidenti Vladimir Putin Beynəlxalq Təhlükəsizlik üzrə IX Moskva konfransı iştirakçılarını salamlayarkən bildirib.

"Rusiya sülhməramlıları regionda sülh və təhlükəsizliyi etibarlı şəkildə təmin edirlər. Humanitar vəziyyətin yaxşılaşdırılması, ərazilərin minalardan təmizlənməsi və sosial infrastrukturun bərpası üçün xeyli işlər görülür". Putinin sözlərinə görə, Rusiya qonşu ölkələrin təhlükəsizliyi ilə bağlı məsuliyyət daşıdığını heç vaxt unutmur. Bundan sonra da münaqişə regionlarında vəziyyətin deskalasiyasına, "ümumi qitəmizdə sülh və sabitliyin möhkəmləndirilməsinə" kömək göstərmək niyyətindədir.

Əslində Qarabağda münaqişənin bitdiyi çoxdan məlumdur. Hətta bu barədə ölkə başçımız də dəfələrlə çıxış edib. Belə olan halda Putin "münaqişə dayandırılıb" deməklə hansı mesajı vermək istəyir?.

**AĞ Partiya sədri Tural Abbaslının "Şərq"ə açıqlamasına görə, Putin 2020-ci ildə fəxr etdiyi fəaliyyətlərindən biri kimi Qarabağ konfliktinin həll olunmasını qeyd edib:** "İndi də Rusiyanın səyləri nəticəsində Qarabağ münaqişəsinin dayandığını söyləyir. Bu əslində Putinin regionda varlığını sübut etmək cəhdləridir. Artıq kimsəyə sirr deyil ki, Azərbaycan öz ordusu və 3 minə yaxın şəhidi sayəsində konflikti həll edib, ərazi bütövlüyümüz bərpa olunub. Burada Rusiyanın heç bir rolu yoxdur. Əksinə, Putin hər zaman Ermənistan tərəfdə olub. Son anda da məsələnin birdəfəlik həllinin qarşısını almaq üçün Qarabağa sülhməramlı adı altında qoşun yeridib. Dolayısı ilə konfliktin daha da uzanmasına şərait yaratmaq istəyir. Rusiya münaqişənin həllini istəsəydi, kənara çəkilərdi. Məsələni belə həll edən idisə, niyə 30 il ATƏT-in həmsədr dövləti kimi bir qarış torpağın qayıtmasına nail olmamışdı? Yaxud da BMT qətnamələrinin icra edilməsi istiqamətində addım atmamışdı?".

**T.Abbaslı vurğulayıb ki, Putin Türkiyənin Azərbaycanda möhkəmlənən mövqelərinə və istər Azərbaycan cəmiyyəti, istərsə də siyasi elitasının qardaş ölkəyə meyillənməsinin qarşısını almaq üçün daxilə bir mesaj verir:** "Təbii ki, onlara xidmət edən "5-ci kalon"un mövqelərini gücləndirmək üçün bu müraciət olunub ki, guya, Rusiya bölgədə pozitiv rol oynayıb. Rusiyanın Qarabağ konfliktində oynadığı yeganə rol neqativ və ölkəmizin əleyhinədir. Rəsmi Moskva sadəcə Azərbaycanın qəhrəman şəhidləri və ordusunun qazandığı qələbəni sahiblənmək istəyir. Lakin qələbə ilk növbədə Azərbaycan xalqı və siyasətinin, ikinci Türkiyənin, üçüncü isə Pakistanındır. Rusiya bu siyahıda yoxdur. Xalqımız Putinin açıqlamasına aldanmalı deyil!".

**Yeganə Bayramova**



## "Əzizlərim, vaksin vurdurun, canınız qurtarsın"

### Razi Nurullayev: "Yoxsa, hər addımda, hər idarədə, toyda, restoranda, iş yerində pasport soruşacaqlar"

**"Vaksin bütün dünyada könüllülük prinsipləri əsasında aparılır, amma tətbiq edilən məhdudiyyətlər vaksinləşməni 100 faiz məcburi edir".**

Bu sözləri millət vəkili, MCP sədri Razi Nurullayev deyib. Deputat bildirib ki, digər ölkələrdə vaksin vurdurmayanlar üçün şərtlər daha ağırdır və məhdudiyyətlər tətbiq edilir: "Hər kəsi vaksin vurdurmağa səsləyirəm. Vaksin vurdurun, canınız qurtarsın. Mən vurdurmuşam və peşman da deyiləm. Sadəcə bir narahatlığım odur ki, vaksinləşməni də siyasiləşdiriblər. Çin və Rusiya istehsalı vaksinləri Qərb tanımır. İndi nə edək? Mütləq Qərb istehsalı vaskin vurdurmalıyıq? Bu çox əcaib və ədalətsiz bir yanaşmadır və ikili siyasətdir. Bu yanaşmanı və siyasəti qətiyyətlə pisləyirəm. Əzizlərim! Vaksin vurdurun. Yoxsa, hər addımda, hər idarədə, toyda, restoranda, iş yerində pasport soruşacaqlar. Vaxtınız, əsəbləriniz gerilәcәk və həm də risk qrupunda olacaqsınız. Virusdan qorunmağın yolu budur. Bu həm də özünüzə aiddir. Təyyarəyə buraxmayacaqlar, Bakıda olan xarici şirkətlərə, xarici xəstəxanalara və digər xariici məkanlara daxil ola bilməyəcəksiniz, işə düzəlmək başağrısı olacaq. Yəni hər addımda stres sizi gözləyir. Bizə stres lazımdır? Yox, əlbəttə. O zaman vaksin vurdurun və canınız qurtarsın!".

**İsmayıl**

# Rusiya Zəngəzura hərbi baza yerləşdirmir

Ermənistanın Baş nazir vəzifəsini icra edən Nikol Paşinyan Sünikdə (Zəngəzur) Rusiya hərbi bazasının fəaliyyəti üçün Moskvaya nümayəndə heyəti göndərəcək. Bu məqsədlə Ermənistanın nümayəndə heyəti iyunun 26-da Moskvaya səfər edəcək. Səfərin məqsədi hərbi baza ilə bağlı məsələləri müzakirə etməkdir. İclas çərçivəsində Sünik vilayətində hərbi bazasının fəaliyyət göstərməsi üçün lazım olan daşınmaz əmlak və torpaq sahələrinin Rusiya tərəfinə verilməsi ilə bağlı məsələlərə baxılacaq.

**Bölgədə sadəcə 102-ci hərbi bazanın dayaq məntəqəsi olacaq**

Müzakirələrin iyulun 1-dək davam edəcəyi deyilir. Xatırladaq ki, Azərbaycanla sərhəddə yerləşən Sünik vilayətində Rusiyanın 102 saylı hərbi bazasının iki dayaq məntəqəsi yaradılıb. Rusiya hərbi bazasının genişləndirilməsi haqda bir müddət əvvəl Müdafiə naziri Vaharşak Harutunyan da məlumat vermişdi. Nazir bildirmişdi ki, hərbi bazadan əlavə, Ermənistandakı rus sərhədçilərinə əlavə funksiyalar həvalə olunacaq: "Ermənistandakı rus sərhədçilərinə verilən bütün tapşırıqlar ən yüksək səviyyədə yerinə yetiriləcək. Rusiya Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən regionda mövcud hərbi-siyasi reallıqlar nəzərə alınıb və bazanın silahlanmasının gücləndirilməsi yolunda addımlar atılıb. Əminəm ki, bu proses uzunmüddətli xarakter daşıyacaq". Rusiyanın 102 saylı bazası 1995-ci il dövlətlərarası sazişə əsasən, Ermənistanın böyüklüyünə görə ikinci şəhərində - Gümrüdə yerləşdirilib. 2010-cu ildə Rusiya və Ermənistan bazanın yerləşdirilməsi haqda sazişin müddətini 2044-cü ilə qədər uzadıblar. Baza Rusiyanın Silahlı Qüvvələrinin Quru Qoşunlarının tərkibindəki Cənub Hərbi Dairəsinə tabedir. Təxminən 5 min nəfərə yaxın şəxsi heyətə malikdir.

**Politoloq İlqar Vəlizadə "Şərq"ə bildirib ki, həyatda sadəcə ağ və qara rənglər yoxdur, onların müxtəlif çalarları da var.** Ekspertin sözlərinə görə, eynilə siyasət də belədir: "Paşinyan qərbyönlüdür, daxi-



*"Əslində bu addım 10 noyabr üçtərəfli sazişinə istinadən atılır. Sazişə görə, Zəngəzur dəhlizinin təhlükəsizliyi Rusiya hərbçiləri tərəfindən mühafizə ediləcək"*

lən Qərbin prinsiplərinə meyillidir. Amma reallıq odur ki, Ermənistanın təhlükəsizliyini birbaşa Rusiya təmin edir. Nəzərə alaq ki, Ermənistan NATO-nun deyil, KTMT-nin, Avropa Birliyinin deyil, Avrasiya İqtisadi Birliyinin üzvüdür. Bu, institusional reallıqdır. Ermənistan formal olaraq Rusiyaya bağlıdır və Kremldən istədiyi zaman qopa bilməz. İrəvanın Qərbə doğru addımlar atması mümkündür. Lakin Moskva istənilən zaman məhdudiyyətlər qoymaqda sərbəstdir və səlahiyyət sahibidir. Rusiyanın Zəngəzura gətirdiyi isə hərbi baza deyil. Ermənistanda Rusiyanın sadəcə bir hərbi bazası var və o da Gümrüdə yerləşir".

**Analitikə görə, Ermənistan kimi ölkədə üç-beş rus hərbi bazasının olmasına ehtiyac yoxdur:** "102-ci bazadan başqa hərbi baza olmayacaq. Zəngəzura gətirilən iki hərbi obyekt isə 102-ci hərbi bazanın dayaq məntəqəsidir. Zəngəzurun cənub hissəsində, Mehri şəhərində Rusiya Təhlükəsizlik Xidmətinin üç dayaq məntəqəsi olacaq. Mayın axırında bununla bağlı qərar verilib. Bu da Rusiyanın Ermənistanda, konkret həmin bölgədə hərbi mövcudluğunun artırılması deməkdir. Əslində bu addım 10 noyabr üçtərəfli sazişinə istinadən atılır. Sazişə görə, Zəngəzur dəhlizinin təhlükəsizliyi Rusiya hərbçiləri tərəfindən mühafizə ediləcək. Proseslər bu məsələnin ətrafında gedir. Bunun Azərbaycana hansısa mənfi təsiri olmayacaq, ola da bilməz. Necə ki, müharibə zamanı 102-ci hərbi bazadan real təhdid görmədik. Ermənistanda üç-beş dayaq məntəqəsinin artması heç nəyi dəyişmir. Onsuz da bütün məsələləri Rusiya ilə müzakirə edirik və yekun qərarı Bakı və Moskva verir".

**İsmayıl Qocayev**

# Fəlakət baş verəndə camaatı günahlandırırlar



## “Bakıda tikinti və şəhərsalma normaları kobud şəkildə pozulub”

### “İnsanları günəş işığından, təmiz havadan məhrum edirlər. Heç Nyu-Yorkda, Çikaqoda belə tikintilər yoxdur”

Son illər paytaxtımızda inşa edilən çoxmərtəbəli binaların sayı artıb. Lakin həmin binaların əksəriyyəti tikilən zaman tikinti normaları gözlənilmir. Binalar necə gəldi, bir-birinə yaxın tikilir. Görürsən ki, iki çoxmərtəbəli binanın arasında başqası inşa olunub. Tikililər və qonşu binalar arasında məsafə olduqca azdır. Halbuki, hər bir mənzil normal havalanmalı, günəş işığı mənzillərə paralel düşməli, nəm və rütubət kimi problem yaranmamalıdır.

Bu baxımdan binalar arasında məsafənin olması mütləqdir. Tikinti zamanı məsafə normaları qorunmalıdır. Bütün bu deyilənlərin fonunda, başqa bir məsələ isə yanğın baş verdikdə yanğınsöndürənlərin həmin binalara sərbəst şəkildə daxil ola bilməsidir. Qeyd edək ki, ötən gün Yasamalda çoxmərtəbəli binada baş verən yanğının şiddətlənməsinin başlıca səbəblərindən biri də məhz yanğınsöndürən maşınlarının həmin əraziyə gec daxil olması olub.

**Mövzu ilə bağlı Müstəqil Memarlar Assosiasiyasının rəhbəri Zemfira Budaqova ”Şərq”ə açıqlama verib. O, açıqlamasında vurğulayıb ki, paytaxtdakı tikintilərin çoxu şəhərsalma qaydalarına zidd aparılıb:** ”Ümumiyyətlə, Bakıda tikinti və şəhərsalma normaları kobud şəkildə pozulub. Binalar arasında həddsiz qısa məsafələr qoyulub. Bunlar şəhərsalma qanunlarına tamamilə ziddir. Xüsusi olaraq qeyd edim ki, yaşayış evləri üçün tətbiq olunan ara məsafələr həddsiz azdır. Təbii ki, şəhərsalmanın öz qaydaları var. Tutaq ki, 16 mərtəbəli binanın hər mərtəbəsinin hündürlüyü 3 metrdirsə, qonşu bina ilə ara məsafəsi azı 48 metr olmalıdır. Yəni mərtəbələrin hündürlüyü nə qədərdirsə, 3-ə vurulmalıdır, alınan nəticə binalar arasındakı məsafəni təyin etməlidir. Bu, normativ qaydadır. Amma hazırda Bakı şəhərsalma qanunundan kənar tikilmiş binalarla doludur. Heç olmasa, ara məsafəsi 50-60 metr olmalıdır. Təəssüf ki, bunlara rast gəlinmir. Demək olar, bütün yaşayış binalarının sağı-solu, önü, arxası əlavə tikililərlə bağlanıb. Bütün yaşayış binalarının böyrü-başı zəbt edilib. Binanı başqa bir binanın düz önündə inşa edirlər. İnsanları günəş işığından, təmiz havadan məhrum edirlər. Heç Nyu-Yorkda, Çikaqoda belə tikintilər yoxdur”.

Onun sözlərinə görə, Azərbaycan şəhərlərindən yalnız Sumqayıt müəyyən qədər şəhərsalma qanunlarına uyğun salınıb: ”Əvvəllər Sumqayıtda binalar birbirindən uzaq idi. Dəniz kənarında çoxmərtəbəli binalar yox idi. Küçələr isə enli və geniş idi. İndi orada tikilən binalar arasındakı məsafələr də Bakıdakı kimi bir-birinə çox yaxındır. Qeyd edim ki, binalar düzüləndə həmişə elə düzülməlidir ki, bir tərəfi günə çıxan, bir tərəfi günbatan olmasın. Bu, şəhərsalmanın qaydalarına aiddir”.

***Z.Budaqova qeyd edib ki, yeni tikililərdə ümumiyyətlə, tikinti qanunlarına riayət edilmir:*** ”Hər hansısa fəlakət baş verəndə camaatı günahlandırırlar. Binalar elə inşa edilməlidir ki, avtomobillər binalar arasında sərbəst hərəkət edə bilsin. Fövqəladə hallar baş verəndə də yanğınsöndürən, təcili yardım, digər qəza xidmətləri hadisə yerinə tez çata bilsin. Bütün bu normativ qanunlar binalar tikilərkən nəzərə alınmalıdır”.

**Aynurə Pənahqızı**

## Ermənilər Tovuz istiqamətində mövqelərimizi atəşə tutub

### Azərbaycan Ordusunun şəxsi heyəti arasında həlak olan və yaralanan yoxdur



**İyunun 24-də saat 14.30-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Berd rayonunun Ayqedzor kəndi yaxınlığında yerləşən mövqelərdən Tovuz rayonu Muncuqlu kəndi istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan atəşə tutub.**

Müdafiə Nazirliyindən ”Şərq”ə verilən məlumata görə, Azərbaycan Ordusunun şəxsi heyəti arasında həlak olan və yaralanan yoxdur.

Hazırda bu istiqamətdə vəziyyət sabitdir, əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

## Gürcüstanda iki azərbaycanlı yeniyetmə göldə batıb



**Gürcüstanın Qardabani rayonunun Nəzərli kəndindən olan iki azərbaycanlı yeniyetmə rayonda yerləşən Su Elektrik Stansiyasının yaxınlığındakı süni göldə batıb.**

APA-nın yerli bürosunun xəbərinə görə, 17 yaşlı yeniyetmə boğulmaq təhlükəsi ilə üzləşən 15 yaşlı kəndlisini xilas etməyə çalışıb, bu zaman hər ikisi suda batıb.

Yeniyetmələrin meyitləri sudan çıxarılaraq aidiyyəti üzrə təhvil verilib.

## Qaxda sexdə partlayış olub, işçi dünyasını dəyişib



**Qaxda mineral su sexində partlayış olub. Sputnik Azərbaycan-ın bölgə müxbiri xəbər verir ki, hadisə dünən günorta saatlarında rayonun Süskənd yaşayış məntəqəsində yerləşən ”İlham” firmasında baş verib.**

Mineral su sexlərindən birinin sahəsində yerləşdirilən yüksək təzyiqlə sıxılmış oksigen balonu partlayıb. Oksigen balonunun partlaması zamanı yaranan zərbənin gücündən ərazidə olan Qax şəhər sakini, 54 yaşlı Aydın Əşrəf oğlu Şabanovun bədəni bir neçə yerə bölünüb.

Ruzigar Verdiyeva isə güclü şok vəziyyətində xəstəxanaya yerləşdirilib. Hazırda onun müayinə və müalicəsi davam etdirilir. Faktla bağlı Qax rayon prokurorluğunda araşdırma aparılır.

## Putin Paşinyanı seçkilərdə qələbə münasibətilə təbrik edib

Rusiya Prezidenti Vladimir Putin Ermənistanın Baş naziri vəzifəsini icra edən Nikol Paşinyanı rəhbərlik etdiyi partiyanın növbədənkənar parlament seçkilərində qələbə qazanması münasibətilə təbrik edib.

Bu barədə Kremlin mətbuat xidməti məlumat yayıb.

# Eqoistlik və cahillik...

## Toplumun ən böyük bəlası hər gün artmaqdadır

Ötən günlərdə Bakıda "Azure" biznes mərkəzində bir nəfərin intihar etməsinin görüntüləri yayılıb. 1999-cu il təvəllüdlü Elvin Məmmədov binanın 15-ci mərtəbəsində yerləşən ofislərin birindən özünü atmazdan əvvəl məktub yazıb.

Məktubda qeyd edilir: ”Hər şey bura qədərmiş. Həyat bəlkə də çox gözəldir, amma mən yaşamağı bacarmadım. Özünüzə yaxşı baxın. Möhkəm olun, mənə görə pis olmayın. 22 il də bəs edər. Ata, ana, qardaşım, sizi çox istəyirəm”.

Təbii ki, yaşanan bütün intihar hadisələri üzücü xəbərlər sırasındadır. Lakin gənc yaşda birinin canına qıyması olduqca sarsıdıcı haldır. Xüsusilə, həmin gənc yaşının ən gözəl çağlarında yaşamaqdan imtina edirsə, deməli, cəmiyyətdə ciddi hadisələr baş verir. Bilinmir ki, günahkar ailələrdir, yoxsa toplum?

**Tanınmış şair-publisist Aqşin Yenisey ”Şərq”ə bildirib ki, intihar bütün hallarda sosial hadisədir:** ”Bu fikrə yüz il əvvəl tarixdə ilk dəfə intihar statistikalarını araşdıran fransız sosioloq Emili Drukheym gəlmişdi. Yəni intiharlarda heç də qatil qurbanın özü deyil, qatil cəmiyyətdir, icmadır, ailədir, dost çevrəsidir, nə bilim, sevgilidir və. s. Ona görə intiharı təkcə fərdin zəifliyinin, yaxud cəsarətinin ayağına yazmaq düz deyil.

*Azərbaycanda intihar hadisələrinin çoxu təkcə ailənin günahı ucbatından baş vermir*





Konkret bizim cəmiyyətə gəlincə, müşahidələrim əsasında deyə bilərəm ki, cəmiyyətimizdə daha çox intiharın eqoistik halı yayğındır.

Şəxsi uğursuzluğuna görə öz ölümü ilə başqalarını cəzalandırmaq istəyi. İstər ailə, istər cəmiyyət ilə konflikt halında olan, öz eqosunu yeritmək, yaxud xilas etmək üçün vurnuxan gənclər, buna nail olmadıqda qarşı tərəfi cəzalandırmaq qərarına gəlirlər. İntihar bu qərarlardan biridir.

Bəzi hallarda intiharla yanaşı, cinayətə də əl atırlar. Bir neçə il əvvəl Nepal şahzadəsi Dipendra sevdiyi qızla evlənməyə razı olmadıqları üçün əvvəlcə öz ailə üzvlərini güllələbaran edib, sonra özünü öldürmüşdü. Mentalitetimizin, cəmiyyətimizin sosioloji problemləri araşdırılmadığı üçün biz intiharların yerli səbəbləri haqqında heç bir bilgiyə sahib deyilik.

Sadəcə, müşahidələrimizə və şəxsi təcrübələrimizə əsaslanıb fikir yürüdə bilirik. Təcrübələrim isə bunu deyir ki, Azərbaycanda intihar hadisələrinin çoxu, sadəcə, cəhalət üzündən baş verir: həm cəmiyyətin, həm ailənin, həm də fərdlərin cahilliyi ucbatından”.

**Yeganə Bayramova**

# Seçki erməni cəmiyyətini təhlükəli aqibətdən xilas etdi



*"Paşinyan daşnak-faşist ideologiyasından yoğrulmuş köhnə Ermənistanın deyil, yeniləşmiş Ermənistanın təmsilçisi olmağı bacarmalıdır"*

Nikol Paşinyanın parlament seçkisində qalib gəlməsi ilk növbədə erməni xalqının özü üçün yaxşıdır. 44 günlük müharibədə sarsıdıcı məğlubiyyətin bütün ağrı-acısını dadmış, xaos, anarxiya vəziyyətindən yorulmuş erməni xalqı nəhayət dərk etdi ki, son yüz ildə Ermənistan və kilsə tərəfindən Azərbaycana qarşı aparılan düşmənçilik siyasətinin əsas zərbəsi məhz ermənilərə dəyir.

Erməni xalqı cinayətkar iqtidarların son 30 ildə yürütdüyü millətçi-faşist siyasətinin bədəlini çox ağır şəkildə ödəməli oldu. Görünür, xalqın əksəriyyəti, xüsusən Paşinyana səs verən kütlə proseslərə realist yanaşmağa, sağlam düşünməyə başlayıblar. Seçkinin nəticələrinə də ilk növbədə məhz bu yöndən yanaşmaq lazımdır. Erməni xalqı Paşinyanın simasında müharibəyə "yox" dedi, qonşu dövlətlərlə normal münasibətlərin qurulmasına səs verdi. Başqa sözlə desək, ermənilər Paşinyana son ümid yeri kimi baxır. İndi görək, Paşinyan da ona göstərilən bu etimadı doğrulda biləcəkmi.

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov "Şərq"ə açıqlamasında deyib ki, Paşinyanın qələbəsi bütövlükdə Cənubi Qafqaz regionu üçün də əhəmiyyətlidir.** Çünki Ermənistan hərbi-siyasi rəhbərliyinin və erməni xalqının millətçi-daşnak kəsiminin destruktiv siyasətindən, ekstremist davranışlarından təkcə Azərbaycan deyil, bütün bölgə xalqları da beziblər: "Seçkidə revanşistlər qalib gəlsəydi, Ermənistanın pozucu-təxribatçı davranışları yenə də davam edəcək və xarici siyasətdə aqressivliyi daha da artacaqdı. Bu isə ilk növbədə erməni xalqının özünü növbəti bəlalarla üz-üzə qoyacaqdı. Lakin seçici elektoratının Koçaryana deyil, Paşinyana üstünlük verməsi Ermənistanı və erməni xalqını bu təhlükəli aqibətdən xilas etdi. İndi Ermənistanın öz səhvlərini düzəltməsi üçün əlverişli şərait yaranıb. Paşinyan öz məsuliyyətini hiss edərək, xalqının ona göstərdiyi etimaddan səmərəli şəkildə istifadə etməli və ilk növbədə Azərbaycanla münasibətləri nizama salmalıdır. Sərhədlərin demarkasiyası, Zəngəzur dəhlizinin açılması, yekun sülh müqaviləsinin imzalanması tezliklə öz həllini tapmalıdır. Bir sözlə, Paşinyan daşnak-faşist ideologiyasından yoğrulmuş köhnə Ermənistanın deyil, yeniləşmiş Ermənistanın, real sülhə can atan Ermənistanın təmsilçisi olmağı bacarmalıdır".

**İsmayıl Qocayev**

## Təlimlər alqışalayiqdir

Dəniz qüvvələrimiz də təcrübəli və güclüdür



**Hərbi Dəniz Qüvvələrinin Döyüş Gəmiləri Dəstəsi, Döyüş Təminatı və Təminedici Gəmilər Dəstəsi və Dəniz Piyadalarının iştirakı ilə keçirilən taktiki təlimlər davam edir. Təlimlərin ikinci mərhələsi üzrə tapşırıqlar da icra olunub.**

Bu mərhələdə Xəzər dənizinin Azərbaycana məxsus sektorunda terror-diversiya fəaliyyətlərinin qarşısının alınması üzrə döyüş tapşırıqlarının yerinə yetirilməsi, qəzaya uğramış gəmiyə yardımın göstərilməsi, enerji infrastrukturunun mühafizəsi və müdafiəsi üzrə tapşırıqların yerinə yetirilməsi nəzərdə tutulub. Bütün tapşırıqlar yerinə yetirildikdən sonra Hərbi Dəniz Qüvvələri Komandanı tərəfindən təlimlərə yekun vurulub. Görülən fəaliyyətlər təhlil ediləcək, təlimlərdə iştirak edən qüvvə və vasitələrin qarşıya qoyulan tapşırıqların icra səviyyəsi qiymətləndiriləcək. Təlimlərin əhəmiyyətini **"Şərq"ə şərh edən Qarabağ qazisi, ehtiyatda olan gizir Natiq Mehdiyev bildirib ki, quruda güclü ordumuz olduğu kimi Hərbi Dəniz Qüvvələrimiz də kifayət qədər təcrübəli və güclüdür:** "Bu baxımdan Hərbi Dəniz Qüvvələrimizin keçdiyi təlimlər alqışalayiq bir addımdır. Bildiyimiz kimi, Azərbaycanın tək quruda yox, bəzi ölkələrlə hətta su sərhədləri var. Azərbaycan zəngin bir ölkə olduğu üçün bir çox qonşu ölkənin gözü bizdədir və bizim də zəif olmamağımız üçün mütəmadi təlimlərdən keçməyimiz önəmlidir. Necə deyərlər, "təlimdə tər tökən, döyüşdə düşmənin qanını tökər". Son təlimlərin məqsədi isə Hərbi Dəniz Qüvvələrinin bütün heyətinin - zabit, gizir və əsgərlərinin döyüş hazırlığı və peşəkarlığını inkişaf etdirməkdir".

**Yeganə Bayramova**



# Paşinyana daha heç bir təhlükə yoxdur

*"Əsas məsələ iqtidarın Azərbaycan və Türkiyə ilə münasibətləri necə quracağıdır"*

Qarabağda yaşayan ermənilər Xankəndi şəhərinin mərkəzi meydanına toplaşaraq mitinq keçiriblər. Etirazçılar qondarma rejimin rəhbəri Araik Arutyunyanın istefasını tələb ediblər. Mitinqə toplaşanlar A.Arutyunyanın Qarabağdakı ermənilərinin mövqeyini əks etdirmədiyini bildiriblər. Aksiya iştirakçıları onu 44 günlük müharibə zamanı erməniləri aldatmaqda ittiham edib və Ermənistanın Baş naziri vəzifəsini icra edən Nikol Paşinyan kimi "kapitulyant", yəni "təslimçi" adlandırıblar.

Mitinqə toplaşanlar "Araik, rədd ol!", "Araik satqındır!" şüarlarını səsləndiriblər. Qondarma rejimin nümayəndələrindən Artak Beqlaryan etirazçılara Arutyunyanın Xankəndidə olmadığını və onun Ermənistandan Qarabağa iyunun 22-də qayıdacağını deyib. Özünü "Hadrutun işğaldan azad edilməsi" adlı təşkilatın rəhbəri kimi təqdim edən Meri Davtyan və David Avanesyan adlı Xankəndi sakini isə Arutyunyanın istefası tələbi ilə aclıq aksiyasına başlayıb. Araikin rəqibləri iyunun 22-si saat 19:00-dan etibarən mitinqləri davam etdiriblər. Etirazların əsas səbəbi kimi Araik Arutyunyanın Nikol Paşinyanı növbədənkənar parlament seçkilərindəki qələbə münasibətilə təbrik etməsi göstərilir.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu mövcud vəziyyəti "Şərq"ə təhlil edib:** "Robert Koçaryan və tərəfdarları Ermənistandakı məğlubiyyətin intiqamını Qarabağda almaq istədilər. Amma artıq sakitlikdir. Araiki devirmək üçün lazımi qüvvə yoxdur. Həm də bu, bizim üçün hansısa əhəmiyyət kəsb etmir. Separatçının yaxşısı, pisi olmur. Necə deyərlər, ilanın ağına da lənət, qarasına da. Hər halda ciddi nəticənin əldə ediləcəyinə inanmıram. Hətta Araik devrilsə belə, onun yerinə gələn adam Qarabağdakı erməniləri idarə edə bilməyəcək".

**E.Şahinoğlu, həmçinin Paşinyan iqtidarının gələcək taleyindən danışıb:** "Onun üçün hansısa təhlükə olduğunu düşünmürəm. Birincisi, Koçaryanla arasındakı səs fərqi kifayət qədər çoxdur. Bu, Paşinyana manevr imkanları verir. Eyni zamanda, Qərb, hətta Paşinyanı dəstəkləyən Rusiya belə, hazırkı baş nazirin hakimiyyətini tanıdı. Əsas məsələ iqtidarın Azərbaycan və Türkiyə ilə münasibətləri necə quracağıdır. Əgər daxildə inkişaf istəyirlərsə, sülh yolu seçməlidirlər. Paşinyan bunu etməsə, vəziyyəti ağır olacaq".

**Kənan Novruzov**

# ABŞ-ın iradəsi ortadadır

*Yeni mərhələ başlayıb, Rusiya regionda neytrallaşdırılır*



Vyanada İranın nüvə proqramı ətrafında aparılan danışıqların gedişində ABŞ-ın eks-prezidenti Donald Tramp zamanında İrana qarşı iqtisadi sahədə tətbiq olunmuş mindən çox sanksiyanın aradan qaldırılması barədə razılıq əldə edilib.

Bunu İranın Prezident Administrasiyasının rəhbəri Mahmud Vaezi bəyan edib. O qeyd edib ki, Tramp dövründə İrana qarşı tətbiq edilmiş 1040-a yaxın sanksiya aradan qaldırılacaq. M.Vaezinin sözlərinə görə, hazırda danışıqlar masasında Trampın hakimiyyətindən öncə qüvvəyə minmiş sanksiyaların ləğvi məsələsi müzakirə olunur.

**"Şərq" olaraq tərəflər arasındakı münasibətlərin Cənubi Qafqaza təsiri barədə politoloq Məhəmməd Əsədullazadə ilə müzakirə apardıq:**

**- Vaşinqtonla Tehran arasındakı əlaqələr gələcək perspektiv üçün nələr vəd edir?**

- Danışıqlar müsbət nəticələnir. Avqusta kimi bir çox sanksiyaların ləğvi gözlənilir. Ümumiyyətlə, tərəflər arasında yeni mərhələ başlayıb. Və baş verənlər dünya nizamına ciddi təsir edəcək.

**- Dialoq mühitinin formalaşmasında ölkələrin maraqları nədir?**

- ABŞ Yaxın Şərqdə Rusiya-Çin-İran ittifaqını zəiflətmək istəyir. Və buna nail olur. İran isə sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmağa məcburdur. Bunun üçün öhdəliklərə əməl etməlidir ki, sanksiyalar aradan qalxsın. Vaşinqton bəzi sanksiyaları qüvvədə saxlamağa çalışsa da, bu, Tehran üçün arzuolunan deyil. Tərəflər arasında diplomatik münasibətlərin yaranmasından danışmaq isə tezdir. Buna nə ABŞ hazırdır, nə də İran.

**- Bayden administrasiyası Yaxın Şərqlə bağlı siyasətini Cənubi Qafqazda da tətbiq edə və Rusiyaya qarşı bufer-dövlət yarada bilərmi?**

- İnanmıram. Bakı və Ankara bunu qəbul etməz. ABŞ onsuz da Türkiyə vasitəsitəsilə regionda Rusiyanı neytrallaşdırır. Bəlkə də, Vaşinqton dediyiniz məsələni həyata keçirmək istəyər. Amma reallığı başa düşür. Bilir ki, Moskva kimi Tehran da Azərbaycan və Türkiyəyə qarşı düşmənlik siyasəti yeridir. Həmçinin İranın regionda dayaqları yoxdur. Bu, iki qardaş dövlətin koordinasiyalı siyasəti nəticəsində mümkün olub. Yəni ABŞ-ın Yaxın Şərq və Cənubi Qafqaz siyasətləri fərqlidir.

**- Ermənistandakı seçkilərin nəticəsi bu proseslərə necə təsir edəcək?**

- Beləliklə, Rusiyanın regiondakı təsir gücü zəiflədi. Deməli, ABŞ-ın İrandan istifadə etməsinə, ümumiyyətlə, ehtiyac yoxdur. Yeni hakimiyyətin Azərbaycan və Türkiyə ilə münasibətləri daha yaxşı olacaq, nəinki İranla.

**Kənan Novruzov**

# İctimai və dövlət maraqlarının müdafiəsi



# Biz onlara borcluyuq!

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

## *Şəhid və qazi ailələri heç vaxt unudulmayacaq*

Azərbaycan Silahlı Qüvvələri 103 yaşını qeyd edir. Azərbaycan Xalq Cümhuriyyətinin İstiqlal Bəyannaməsində Azərbaycanın Silahlı Qüvvələrinin yaradılması qeyd edilir. İlk dövrdə hərbi qüvvələr 600 nəfərlik könüllü dəstələrdən ibarət olub. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1918-ci il 26 iyun tarixli qərarı ilə Çar Rusiyası dövründə "Vəhşi diviziya" adlanan keçmiş Tatar süvari alayının əsgərlərindən formalaşdırılmış və general Əliağa Şıxlinskinin rəhbərlik etdiyi Müsəlman korpusunun əsasında ilk ordu hissəsi, 5000 nəfər şəxsi heyəti olan "Əlahiddə Azərbaycan korpusu" yaradılıb.

Silahlı Qüvvələrimizin tarixi, keçdiyi şərəfli yolu ən dolğun əks etdirən 44 günlük Vətən müharibəmiz günlərində efirlərdə yayımlanan video-çarxdır: 1918-ci ilin əsgəri əlindəki üçrəngli bayrağı 1991-ci ilin - müstəqilliyini yenicə bərpa etmiş dövlətin əsgərinə, bu əsgərdə 2021-ci ilin düşməni birdəfəlik diz çökdürən qalib, müasir Azərbaycan əsgəri təslim edir. Nəsildən nəsilə belə ötürülür Vətən torpağı, Vətən sevgisi, şəhidlik, qazilik. İyunun 26-da Azərbaycan Silahlı Qüvvələr Gününü xüsusi təmtəraqla, alnı açıq, üzü ağ, əlində Qələbə, Zəfər bayrağı ilə qeyd edəcək. Bu qələbə sevincini, zəfər qürurunu bizə yaşadan müzəffər Ali Baş Komandan - Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Baş Komandanın cəsur, rəşadətli, qalib əsgərləridir - Azərbaycan Ordusudur. Onlar bizə milli qürur hissi yaşatdılar. Torpaqlarımızı mənfur düşməndən azad edib ərazi bütövlüyümüzü bərpa etdilər. Canlarını fəda etdilər, şəhid, qazi oldular. Haqları heç bir şeylə ölçülə bilməz, ödənməz. Haqlarını ödəyə bilməsək də, şəhidlərin ruhuna sayğı göstərmək, ailələrini və qazilərimizi qayğı ilə əhatə etməyə borcluyuq.

### Əsgərlər təltif edilib

Mübaliğəsiz, Azərbaycan əsgərinin, şəhid ailələri, qazilərimizin ən böyük hamisi Prezident İlham Əliyevdir. Prezidentin bugünədək imzaladığı fərman və sərəncamlar ölkə vətəndaşlarının sosial rifahının yaxşılaşmasına yönəldiyi kimi, həmçinin şəhid ailələri və müharibə iştirakçılarının da yaşayışının yüksəlməsinə xidmət edir. İndiyədək şəhid ailələri, müharibə əlillərinə minlərlə mənzil, avtomobil paylanıb. Onların və ailələrinin ehtiyaclarının qarşılanması üçün məqsədyönlü tədbirlər həyata keçirilib. Sadalamağa ehtiyac yoxdur. Xalqımız bunları bilir, görür. Həyata keçirilən sosialyönümlü siyasətin dövlət maraqları çərçivəsində və vətəndaş maraqlarına söykəndiyinə əmindir. Silahlı Qüvvələr Günü ərəfəsində Prezident İlham Əliyevin sərəncamı ilə minlərlə hərbçi "Xocavənd", "Füzuli", "Zəngilan", "Cəbrayıl"ın azad olunması uğrunda", hər bir ərazi üzrə ayrı-ayrılıqda medallarla təltif olunublar. Torpaqlarımızın işğaldan azad edilməsində rəşadət göstərmiş hərbi qulluqçuların təltif edilməsi, hərbi hisslərdə bayram tədbirlərinin keçirilməsi qalib əsgərə dövlətin təşəkkürüdür. İşğaldan azad edilmiş ərazilərdə yerləşən bölmələrdə bu günlərdə silsilə tədbirlər keçirilir. Belə tədbirlərdən biri Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə keçirilib. Müdafiə Nazirliyinin məlumatında bildirilir ki, növbəti tədbir səyyar təşviqat qrupunun üzvlərinin və şəxsi heyətin iştirakı ilə Kəlbəcər rayonu ərazisində təşkil olunub. Əvvəlcə bayram günü üçün böyük ölçüdə hazırlanmış Azərbaycan Respublikasının Dövlət Bayrağı "Yaşasın Azərbaycan" şüarı altında şəxsi heyət tərəfindən qaldırılıb. Tədbirdə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında xalqımızın 44 günlük Vətən müharibəsində qazandığı qələbədən, döyüşlərdə göstərilən şəxsi igidlik və qəhrəmanlıq nümunələrindən əsgərlərlə geniş söhbətlər aparılıb, ordumuzun əldə etdiyi zəfərin tarixi əhəmiyyətindən danışılıb. Bu ərazilərdə xidmət edən hərbi qulluqçuların doğmalarına çatdırmaq istədikləri istək və arzuları videoçəkiliş vasitəsi ilə qeydə alınıb. Əsgərlərin yaxınları üçün hazırlanmış videosüjetlər Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzi tərəfindən hərbçilərin ailələrinə göndərilib. Bayram tədbirində istedadlı əsgərlər arasında yarışlar keçirilib, qaliblərə mükafatlar və döş nişanları təqdim olunub. Görüşlər zamanı "Əsgərə məktub" layihəsi çərçivəsində vətəndaşlar tərəfindən yazılmış məktublar hərbi qulluqçulara çatdırılıb, şəxsi heyətə Vətən müharibəsi mövzusunda sənədli film nümayiş etdirilib. Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin əməkdaşlarının ifasında təqdim edilən vətənpərvərlik mövzusunda musiqi nömrələri hərbi qulluqçular tərəfindən rəğbətlə qarşılanıb.

## *Qələbəni yaşadanlara ictimai dəstək gündəmdən çıxmayacaq*

### Qələbəni yaşadanlara ictimai dəstək də vacibdir

Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Yaşat" Fondu yaradılıb. Fondun fəaliyyət istiqamətləri bəllidir. Azərbaycan torpaqlarının müdafiəsi uğrunda döyüşənlərə, şəhid olmuş şəxslərin ailələrinə fərq qoymadan mənəvi dəstək olmaq, sosial yardım göstərmək, müalicələrini təşkil etmək, ehtiyaclarını öyrənib, təmin etmək.

"YAŞAT" Fondu tərəfindən Türkiyəyə müalicəyə göndərilən 2 qazimiz - Həmidov Kamran Qəribxan oğlu və Quliyev Elnur İbadət oğlu sağalaraq bu günlərdə Vətənə döndülər. "YAŞAT" Fondu tərəfindən Türkiyədən ölkəmizə gətirilən, həmçinin yerli həkimlərin rəyi nəzərə alınaraq hazırda daha 65 qazimizin müvafiq müayinə, müalicə və reabilitasiya prosesi Türkiyədə davam etdirilir.

"YAŞAT" Fondu qazilərimizin müalicəsini tam yekunlaşana qədər nəzarətdə saxlayacaq. Ümumiyyətlə, ötən dövr ərzində "YAŞAT" Fondu tərəfindən bir sıra mühüm layihələrə imza atılıb. Tovuz "ASAN xidmət" də "Hədiyyə Karvanı" layihəsinin açılış mərasimi keçirilib. Layihə "YAŞAT" Fondunun və Türkiyənin Uşaq Oyunları və İdman Klubları Federasiyasının birgə təşkilatçılığı, Türkiyə Respublikasının Xarici İşlər Nazirliyinin, Türkiyə Respublikasının Ailə və Sosial Xidmətlər Nazirliyinin və Balıkəsir Böyükşəhər Bələdiyyəsinin tərəfdaşlığı ilə reallaşdırılıb. Layihə çərçivəsində şəhidlərimizin övladlarına müəyyən anlama və həlletmə bacarıqları tələb edən oyuncaq hədiyyələr, idman geyim dəstləri, qoruyucu maskalar, jurnallar paylanıb. Məqsəd onlara sevinc bəxş etmək, eləcə də yaradıcı potensiallarının inkişafına dəstək olmaqdır. Ankara şəhərindən start götürən "Hədiyyə karvanı" ölkəmizin müxtəlif şəhər və rayonlarına da səfər edib və həmin rayonlardan olan şəhidlərimizin ailələri ziyarət olunub, onların övladlarına hədiyyələr verilib. "YAŞAT" Fondunun Vətən müharibəsindən sonra dünyaya gələn şəhid övladları üçün layihəsi də davam edir. Dünyaya gələn şəhid övladlarının zəruri xərcləri Fond tərəfindən qarşılanır. Dünyaya gələn 72 şəhid övladına 1000 manat məbləğində maddi yardım edilib, 37 şəhid övladının adına isə 5.000 manat məbləğində depozit hesabı açılıb. Həmin hesaba vəsait Fonda edilən ianələr hesabına toplanmış məbləğdən köçürüləcək. Həmin məbləğin üzərinə mütəmadi olaraq faiz əlavə olunacaq və həmin şəhid övladı 18 yaşına çatdıqdan sonra toplanan məbləği özü hesabından çıxara biləcək.

Qazilərimizin zəruri tibbi, psixoloji və s. istiqamətlərdə yardımlarla təminatı, sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiya olunmaları, normal həyat tərzinə qaytarılmaları istiqamətində məqsədyönlü işlər davamlı olacaq.

### Vətəndaş institutları sosial layihələrdə aktiv olmalıdır

Torpaqlarımızı işğaldan azad edən, bizə qələbə yaşadan qəhrəmanlarımıza hər bir azərbaycanlı dəstək olmalıdır. Xalqın dəstəyi, vətəndaş həmrəyliyi ordumuzun gücünü daim artıracaq. Cəbhədəki əsgər evdəki ailəsinin sıxıntı çəkməyəcəyindən arxayın olmalıdır. Əsgər dövlətinə güvəndiyi kimi vətəndaşa da, qeyri-dövlət sektoruna da güvənməlidir. Ölkəmizdə bu istiqamətdə müsbət fəaliyyət mövcuddur. Silahlı Qüvvələr Günü ərəfəsində, məsələn, "AY-Smed" klinikası çox gözəl təşəbbüs göstərib. "Vətən Müharibəsi Əlillərinə Kömək" İctimai Birliyinin təşkilatçılığı, "Aysmed" klinikasının tibbi dəstəyi ilə 26 iyun Silahlı Qüvvələr Günü münasibətilə 100 nəfər Vətən müharibəsi qazisi və onların övladları üçün tibbi aksiyaya başlanılıb. Aksiya zamanı qazilər və övladları üçün tibbi müayinələr, həkim qəbulu, laborator analizlər və digər bütün tibbi xidmətlər pulsuz təşkil olunur. "Vətən Müharibəsi Əlillərinə Kömək" İctimai Birliyinin icraçı direktoru Zamin Zeynal aksiya barədə açıqlama verərək bildirib ki, tibbi aksiya 3 gün ərzində keçiriləcək. İctimai Birlik tərəfindən şəhid ailələri və qazilərə ictimai, siyasi, sosial dəstəkyönümlü layihələrimiz gələcəkdə də uğurla davam etdiriləcək. Birliyin icraçı direktoru vurğulayıb ki, tibbi əhəmiyyətli tədbiri təşkil etməkdə əsas məqsəd Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələri və qazilərlə bağlı həyata keçirdikləri sosial dəstək proqramına uyğun olaraq, ictimai, siyasi kursu əsas götürərək 44 günlük haqq savaşında torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə fədakarcasına döyüşərək sağlamlığını itirmiş qazilərimizə hər cür diqqət və qayğı ilə yanaşı tibbi cəhətdən də dəstək olmaqdır. Vətən müharibəsi qazilərinə dəstəkyönümlü həyata keçirilən belə tibbi aksiyaların əhatəliliyini təmin etmək üçün birliyin rayonlarda da nümayəndəliklərinin açılması planlaşdırılır. Şübhəsiz ki, belə təşəbbüslər alqışlanmalı, sayın artması üçün ictimai institutlar fəallıq nümayiş etdirməlidir.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Bakıda iki məktəbin heç bir məzunu tələbə adını qazana bilməyib



## “Təəssüflər olsun ki, son 16 ildə məzunların sayı çox aşağı düşüb”

### Təkcə paytaxtda yox, həmçinin regionlarda da belə durum var

2020-ci ildə Bakı şəhərinin ümumtəhsil müəssisələrini 19 628 şagird bitirib və onların 19 172 nəfəri buraxılış imtahanında iştirak edib. Abituriyentlərin ən çoxu Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə qəbul olub.

Bakı şəhər abituriyentlərinin yalnız 43,60 faizi 300-dən yuxarı bal toplayıb. Şəhərin attestat qiymətləri əla olan abituriyentlərindən 4,67 faizi 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 45,53 faizdir.

Qəbul imtahanlarında 304 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən 185 saylı və 105 saylı tam orta məktəblərin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Hər iki məktəbdən bir nəfərin belə ali məktəbə daxil olmaması ciddi siqnaldır. Bütün bunlar həmin təhsil ocaqlarında tədris səviyyəsinin aşağı olduğundan xəbər verir.

**Mövcud durumla bağlı ”Şərq”ə danışan təhsil üzrə ekspert Elçin Əfəndi təəssüflə bildirib ki, təkcə Bakı şəhərində yox, həmçinin regionlarda belə durum var:**

”Goranboyda, Ağsuda və İsmayıllıdakı bir məktəbdə bu cür vəziyyət hökm sürür. Məzunların çoxu ali məktəbə qəbul ola bilməyiblər. Təəssüf ki, bütün bunlar həmin rayonlardakı məktəblərdə ümumi idarəetmənin zəif olması, eyni zamanda təhsil verənlərin keyfiyyət göstəricilərinin aşağı olmasından xəbər verir. Bunun da başlıca səbəbi məktəblərə qəbul imtahanlarında gənc kadrlara üstünlük verilməməsidir. Qeyd olunan ərazilərdə yaşlı kadrlar informasiya texnologiyalarından uzaqdır. Pandemiya ilə əlaqədar ötən il və bu il dərslər onlayn platformadan aparıldı. Beləliklə, həmin ərazilərdə onlayn dərslər keçirilmədi. Bu, bizim üçün ciddi bir xəbərdarlıqdır”.

**Ekspertin sözlərinə görə, son 16 ildə məzunların sayı aşağı düşüb:**

”Məsələn, 2004-cu ildə dünyaya 150 min şəxs gəlib. Amma həmin şəxslər məzun yaşına çatanda say birdən-birə 70-80 min olub. Qalan 60-70 min şəxsin təhsili barədə hansısa informasiya yoxdur. Təəssüf ki, belə faktlar var və hər birimizi narahat etməlidir. Yalnız Dövlət İmtahan Mərkəzinin (DİM) hadisəni işıqlandırdığına şahidik. Digər aidiyyəti qurumlar isə sanki bu faktlarla maraqlanmırlar. 2020-ci ildə ümumtəhsil məktəblərində 79843 nəfər məzun olub, son 16 ildə isə məzunların sayı 30366 nəfərə düşüb. Hər il məzunların sayı azalır. Müəyyən regionlarda xüsusilə qız uşaqlarını 9-cu sinifdən çıxarırlar, kimlərsə ailə həyatına məcbur edilir. Bu kimi hallar da məzunların azalmasına və kütləvi savadsızlığa gətirib çıxarır. Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Nazirlər Kabineti mütləq işə başlamalıdır. Çünki gələcəkdə bu durumun ağrılı nəticələrini ciddi şəkildə görəcəyik”.

**Yeganə Bayramova**

# Yeni təklif olunan qaydalar tam aydın və şəffaf deyil

### Əlillik dərəcələrinin müəyyən olunması ilə bağlı narazılıqlar artacaq



**Ötən günlərdə Milli Məclisin növbədənkənar sessiyasının iclası keçirilib. İclasın gündəliyində 14 məsələ olub.**

Deputatlar gündəliklə yanaşı, cari məsələlərlə bağlı da çıxışlar ediblər və bir sıra problemlər diqqətə çatdırılıb. Əsasən, əlillik dərəcəsinin müəyyən olunması ilə bağlı müzakirələr aparılıb, tənqidlər səsləndirilib.

Deputat Sabir Rüstəmxanlı əlillərə daha asan xidmət göstərilməsi ilə bağlı təklif verib: ”Rayonlarda, elə Bakının özündə də əlillik dərəcələrinin müəyyənləşdirilməsi üçün lazım olan sənəd və məlumatlar elektron qaydada göndərilir. Rayon xəstəxanalarında isə bu işi görə bilən əməkdaş çox azdır. Bir xəstə üçün bu məlumatların cədvələ doldurulması bəzən saatlarla vaxt alır. İnsanlar xeyli vaxt itirir. Sənəd gec gedir, işçilər çox vaxt yeni olduğuna görə, sənəd düzgün doldurulmur. Süründürməçilik yaranır. Bu işi bilən adamlar hazırlanmalıdır”.

Ölkəmizdə illədir ki, əlillik dərəcəsinə dair müzakirələr davam edir. Lakin məsələ tam şəkildə həllini tapmaq bilmir. Təəssüf ki, bu sahədə rüşvət, süründürməçilik hallarına çox rast gəlirik. Xüsusilə, əlil olan şəxslərin əlillik dərəcəsinin düzgün təyin edilməməsi ən çox qarşılaşdığımız haldır. **İqtisadçı-ekspert Natiq Cəfərli ”Şərq”ə açıqlamasında əlillik meyarlarının düzgün təyin edilməsinə dair fikirlərini bildirib:** ”Bu məsələ ilə bağlı kifayət qədər problemin olduğu illərdir ki, deyilir. Zaman-zaman vətəndaşların da ciddi narazılıqları olub. Yeni təklif olunan qaydalar tam aydın və şəffaf deyil. Məlum deyil ki, bu məsələni necə həll edəcəklər və faiz dərəcələrinin müəyyənləşdirilməsinə kim qərar verəcək. Faktiki olaraq yeni dəyişikliklərdə insan faktoru önə çıxır.

Azərbaycanda əngəlli insanlar və əlillik dərəcələri ilə bağlı elə bir sistem qurulmalıdır ki, insan faktoru olmadan uşaqlıqdan əlillik dərəcəsi alana qədər şəffaf şəkildə bütün xəstəlik prosedurlarının elektron qaydada qeydiyyatdan keçirilməsi olsun”.

İqtisadçı qeyd edib ki, əngəlli olan hər bir vətəndaşın elektron kabineti yaradılmalıdır: ”Onlar hansı ölkədə olursa olsunlar, hakimlərə müraciət etdikdə orada qeydiyyatlar aparılmalı və ona uyğun olaraq dərəcələr müəyyənləşdirilməlidir. Bir sözlə, insanların iştirakı olmadan ancaq elektron qaydada hazırlanmış sənədlər hesabına əlillik dərəcəsinin verilməsi ilə bağlı qərar verilməlidir. Təəssüf ki, ölkəmizdə əsas problem insan faktorunun önə çıxmasıdır. Yeni qərarları müxtəlif səbəblərə görə insanlar verir və bu zaman da qeyri-qanuni münasibətlər, rüşvət və korrupsiya halları yaranır”.

**Yeganə Bayramova**

# Bu il də turizm ölkəmiz üçün itirilmiş bir il olacaq

Azərbaycanın təbii sərvətləri, rəngarəng iqlimi, zəngin tarixi-mədəni irsi turizmin inkişafına və ölkəyə daha çox turistin cəlb edilməsinə imkan yaradır. Turizm sahəsi həm regionların inkişafı, həm də ölkənin iqtisadi potensialının möhkəmlənməsi, Azərbaycanın imici, dünyaya inteqrasiyası üçün çox mühüm bir vasitədir.

Turizmlə bağlı ölkənin inkişaf strategiyası ümumilikdə iqtisadiyyatının gücləndirilməsinə böyük töhfə verir. Pandemiyadan öncə turizm sahəsində, ilbəil ölkəyə gələn turistlərin sayında dinamika müşahidə edilir. Qeyd edək ki, 2019-cu ilin yanvar-sentyabr aylarında Azərbaycana dünyanın 191 ölkəsindən 2.4 milyon xarici qonaq gəlib ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 9.6 faiz çoxdur. Statistikaya görə, son vaxtlar 3 milyondan çox əcnəbi vətəndaşın Azərbaycana səfər etməsi nəticəsində turist axını 15 faiz artıb. Xaricilər Azərbaycanda hər il təqribən 1,5-2 milyard dollar xərcləyirlər ki, bu da ölkə iqtisadiyyatına böyük valyuta axını deməkdir. Bu göstərir ki, turizm sahəsində stabil və dinamik inkişaf var. Müstəqillik əldə etdikdən sonra Azərbaycanda turizm sənayesinin yaradılması üçün çox böyük qüvvə sərf olunub. Xüsusən, otel biznesi ilə məşğul olan iri firmalar, dünyanın aparıcı brendləri Azərbaycana gəliblər. Lakin pandemiya səbəbindən ölkələr arasında hava, quru və dəniz nəqliyyatı əlaqələrinin qapadılması, turist səfərlərinə tətbiq edilən qadağalar turizm sektoruna mənfi təsir göstərdi. Artıq bir neçə aydır ki, Azərbaycanda yumşalmalar tətbiq olunub və bir çox iaşə obyektləri ilə yanaşı turizm sektorlarının fəaliyyətinə də icazə verilib. Bir məlumatı da qeyd edək ki, qonşu ölkə Gürcüstanda və Türkiyədə artıq daxili və xarici turizm inkişaf etməyə başlayıb. Bəs Azərbaycanda turizm sahəsində vəziyyət necədir? Bu il ölkəmizdə turizmlə bağlı inkişaf tempi gözlənilirmi?



### Hələ də quru sərhədlərinin, keçid məntəqələrinin bağlı qalması problemlər yaradır

**Suallarımızı cavablandıran iqtisadçı-ekspert Natiq Cəfərli ”Şərq”ə açıqlamasında bildirib ki, Azərbaycanda hələki quru sərhədlərin açılmaması və keçid məntəqələrinin bağlı qalması turizmlə bağlı ciddi irəliləyişin olmasını əngəlləyən əsas faktorlardan biridir.** Ekspert qeyd edib ki, Gürcüstan və Rusiya ilə sərhədlərin bağlı olması kifayət qədər problemlər yaradır: ”Azərbaycanda aviabiletlərin qiyməti çox bahadır. Həm bunu, həm də tələbatın da çox olduğunu nəzərə alaraq xarici turizmlə bağlı bu il də ötən il kimi ölkəmiz üçün itirilmiş bir il olaraq yadda qalacağını düşünürəm. Çünki tək hava nəqliyyatı vasitəsilə turizmin potensialını artırmaq çox çətindir”.

**N.Cəfərli əlavə edib ki, bu il Azərbaycanın daxili turizmində müəyyən canlanma ola bilər:** ”Çünki xaricə getməyə bir çox insanlar hələ də risk etmir. Həmçinin bir çox ölkələrdə hələ də kovid pasportu anlayışı var. Hesab edirəm ki, daxili turizmdə, əsasən iyul və avqust aylarında ciddi canlanma olsun və tələbat artsın. Bu da təəssüf ki, həmişə qiymətlərin yüksəlməsinə səbəb olub. Ancaq xarici turistlərin Azərbaycana gəlməsi və xarici turizm məsələsində kifayət qədər böyük itkilərin olacağını indidən söyləmək mümkündür. Əgər iyul ayının 1-dən heç olmasa Gürcüstan, Rusiya və Türkiyə ilə quru sərhədlər açılsa, o zaman müəyyən qədər xarici turizm canlanmasını yaşaya bilərik”.

**Aynurə Pənahqızı**

# Avropada avtomobillərə "qara qutu" yerləşdiriləcək



*Hesablamalara görə bu, ölümə və ya ağır yaralanmaya səbəb olan qəzaların sayını azaldacaq*

Avropa Birliyinin qəbul etdiyi qərara əsasən, 2022-ci ilin may ayından etibarən avtomobillərdə "qara qutu" yerləşdiriləcək. "Qara qutu" avtomobillərdə 41 məlumatı toplayacaq. "qara qutu"lar bu məlumatları qəzadan 5 saniyə öncəyə qədər toplaya biləcək.

Avropalı ekspertlər hesab edir ki, "qara qutu"ların toplayacağı məlumatlar ölümə və ya ağır yaralanmaya səbəb olan qəzaların sayını azaldacaq. Əldə ediləcək məlumatlarla qəzanın başvermə səbəbi daha dəqiq müəyyənləşdiriləcək və buna uyğun olaraq qabaqlayıcı tədbirlər görüləcək.

Avropada bir ədəd "qara qutu"nun qiyməti 70 avro olacaq. Məlumatlara əsasən, hazırda Avropada istehsal edilən bəzi avtomobillərə "qara qutu" yerləşdirilir. Həmin avtomobillərdə cihaz avtomobilin ön hissəsində, sürücü və sərnişin oturacağının arasında yerləşdirilir.

**"Qara qutu"nun ölkəmizdə tətbiqi ilə bağlı "Şərq"ə danışan "Avtosfer.az" saytının baş redaktoru, nəqliyyat üzrə ekspert Elməddin Muradlı bildirib ki, Azərbaycanda belə texnologiyaların**

Elməddin Muradlı: "Bu yenilik Azərbaycana bir əsrdən sonra gəlib çıxar"

**tezliklə tətbiqi real görünmür:** "Dünyanın bir çox ölkəsi inkişaf etmiş texnologiyalardan səmərəli şəkildə istifadə edir. Belə texnologiyalar ölkəmizdə tətbiq edilə bilər. Sadəcə olaraq bugünkü Azərbaycan reallıqlarını götürəndə maşınlarda taksometr, takoqraf kimi cihazların qurulmasını hələ təmin edə bilməmişik. Halbuki, həmin cihazlar yük maşınları və sərnişin avtobuslarının hərəkətini bir növ nəzarətdə saxlayır. Taksometr və takoqrafın özü də bir "qara qutu"dur. Takoqrafda sürücünün iş və istirahət rejimi avtomatik qeydə alınır. 20-ci əsrin sonlarında həmin texnologiyalar var idi, lakin indi 21-ci əsrin əvvəli olsa da, biz hələ bu qurğuları tətbiq etməmişik. Yəqin ki, Avropa Birliyi ölkələrində tətbiq olunacaq "qara qutu" ölkəmizə bir əsrdən sonra gəlib çıxar".

**E.Muradlı təəssüflə qeyd edib ki, ölkəmizdə nəqliyyat sektorunda inkişaf zəif gedir:** "Ümumilikdə isə "qara qutu" çox yaxşı texnologiyadır. Yol-nəqliyyat hadisələrinin səbəbini birbaşa aşkarlamaq üçün vasitədir. Bəzən deyirlər ki, sürücü sürət həddini aşdı və ya manevr qaydasını pozduğu üçün öldü. Lakin "qara qutu"da qeydə alınan məlumatlar başqa səbəbləri üzə çıxarır. Məsələn, sürücünün sükan arxasında yatdığı və yaxud ürək tutmasından sonra öldüyü məlum olur.

Lakin qeyd olunur ki, yol-nəqliyyat hadisəsi baş verdi və sürücü hadisə yerində öldü. Dərindən araşdırma zamanı isə məlum olur ki, sürücü hadisə baş verməzdən əvvəl dünyasını dəyişib. Bu cür sistemlər hadisənin birbaşa səbəbini araşdırır. İnkişaf etmiş ölkələr belə texnologiyaları ona görə tətbiq edir ki, hadisələrin ən dəqiq səbəbini öyrənsin və bunun qarşısını ala biləcək sistemlər, texnologiya və qaydalar tətbiq etsinlər.

Biz isə 20-ci əsrin sonlarında dünyanın əksər ölkəsində istifadə olunan takoqrafı 21-ci əsrin əvvəli olsa da, hələ tətbiq edə bilməmişik".

**Yeganə Bayramova**

## 60 illik yubileyiniz mübarək!

Elxan Zal ümumtürk ədəbiyyatı qarşısında xüsusi xidmətləri olan adamdır



**Bu günlərdə tanınmış şair Elxan Zalın 60 illik yubileyi olacaq.**

O, 26 iyun 1961-ci ildə Tovuzun Qaraxanlı kəndində doğulub. 1983-cü ildə Azərbaycan Politexnik İnstitutunun "Mexanika" fakültəsini bitirib. "Türk əsrinin türküləri", "Tarqovı peyzajı" adlı şeir kitabları nəşr edilib. Mahmud Kaşqari adına Uluslararası Fondun sədri, AYB Tərcümə Mərkəzinin nəşri olan "Ulu Çinar" dərgisinin baş redaktorudur. Qazaxıstan Respublikasının ədəbiyyat üzrə beynəlxalq "Alaş" mükafatı və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin "Qızıl Kəlmə" mükafatları laureatıdır. Əsərləri bir çox xarici dillərə tərcümə edilib.

**Azərbaycan Yazıçılar Birliyinin gənclərlə iş üzrə katibi, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid "Şərq"ə açıqlamasında şairi belə təbrik edib:** "Elxan Zal orijinal şeirləri, fərdi üslubu, dəst-xətti ilə seçilir. Onun türkçülük ideologiyasının təbliğində mühüm rolu var. Həmçinin ədibin türk dünyası ölkələri ilə əlaqələri də təqdirəlayiqdir. Bu mənada müasir Azərbaycan ədəbiyyatında xüsusi rolu olan Elxan Zalı təbrik edir, ona yeni yaradıcılıq uğurları arzu edirəm".

**Azərbaycan Yazıçılar Birliyinin gənclər şurasının üzvü Tural Turan isə bunları dedi:** "Elxan Zal Azərbaycan ədəbiyyatşünaslığında, eləcə də ümumtürk ədəbiyyatı qarşısında xüsusi xidmətləri olan adamdır. Mahmud Kaşqari adına Uluslararası Fondun sədri kimi də ümumtürk ədəbiyyatı qarşısında danılmaz fəaliyyət ortaya qoyub. Elxan bəy türk əsrinin - yüzilinin cəfakeş türklərindəndir. Elxan Zalın türk dünyası qarşısındakı ədəbi-ictimai fəaliyyəti danılmazdır. O həm də mifik-psixoloji şeirlərində türk ruhunun kodlarını, çalarlarını çox ustalıqla poetik müstəviyə qaldıra bilib. "Türk əsrinin türküləri" şeirlər kitabında bunu aydın görmək mümkündür. Elxan bəyi 60 illik yubileyi münasibəti ilə təbrik edirəm! Tanrı dağlarında ocaq çatsın!".

**Kənan**

## İlk konteyner qatarı Hindistana yön alıb

*"Şimal-Cənub" dəhlizinin reallaşması Beynəlxalq yükdaşımanın həcminin artmasına imkan verəcək*




**"Ötən gün "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi istifadəyə verilib. Finlandiyanın Helsinki şəhərindən Hindistanın Nava Şeva limanına ilk konteyner blok qatarı yola salınıb. Dəhlizlə ilk konteyner qatarı Rusiya, Azərbaycan və İran ərazisindən keçməklə Hindistana çatdırılacaq".**

Bu barədə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov məlumat verib.

Deputat qeyd edib ki, 2000-ci ildə İran, Rusiya və Hindistan tərəfindən "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi layihəsi yaradılıb: "2005-ci ildən etibarən layihənin önəmli parçasına çevrilən Azərbaycan dəhlizin reallaşmasına aktiv şəkildə dəstək olub. Şüveyş kanalında baş verən son qəzadan sonra isə Şimal-Cənub dəhlizinin əhəmiyyəti daha da yüksəlib. Nəinki region ölkələri, həmçinin inkişaf etmiş dövlətlər layihəyə regionda əsas alternativ nəqliyyat dəhlizi kimi yanaşırlar. Bu isə dəhlizin iqtisadi səmərəliliyini artırmaqla yanaşı, strateji əhəmiyyətini də yüksəldib. Rusiyadan Hindistana qədər uzanan nəqliyyat dəhlizi region üzrə beynəlxalq yükdaşımaların həcminə xüsusi təsir göstərəcək. Azərbaycan həm investisiya, həm infrastruktur baxımından layihənin reallaşmasına dəstək verib. Layihənin həyata keçməsi Azərbaycan üçün beynəlxalq yükdaşımaların həcminin artırılması baxımından da vacibdir. Beynəlxalq daşımalar ölkəmizin qeyri-neft sektorunun əsas istiqamətlərindən biridir. Güman edilir ki, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin reallaşması beynəlxalq yükdaşımanın həcminin və qeyri-neft gəlirlərimizin artmasına imkan verəcək".

**V.Bayramov hesab edir ki, layihə Azərbaycanın strateji mövqeyinin güclənməsi baxımından da əhəmiyyətlidir:** "Xüsusən Zəngəzur dəhlizinin istifadəyə veriləcəyi kontekstindən bölgəni əhatə edən beynəlxalq nəqliyyat layihələrinin əhəmiyyəti yüksəlməkdədir".

**Aynurə Pənahqızı**

# Oxuyub-yazmağı bacarmayan şagirdlər sovet dövründə də olub

*Təhsil eksperti: "Əslində indi valideynlər ayıq-sayıqdırlar, övladlarını oxutmaq üçün səylə çalışırlar, yeri gəlsə, pul xərcləyirlər"*



Ölkəmizdə 9-11-ci sinif şagirdləri arasında oxuyub-yazmağı bacarmayanlar var. Bu barədə "Abituriyent" jurnalının 12-ci buraxılışında məlumat yer alıb.

Qeyd edilib ki, 9 və 11-ci sinif şagirdləri arasında nəinki tədris proqramını minimum mənimsəməyənlər, hətta oxuyub-yazmaqda çətinlik çəkənlər və ya ümumiyyətlə, oxuyub-yazmağı bacarmayanlar da aşkar olunub. Belələri 11-ci sinif şagirdləri arasında 2 nəfər, 9-cu sinif şagirdləri arasında isə 34 nəfərdir. 9-cu siniflər üzrə oxumağı və yazmağı bacarmayan şagirdlərin sayı belədir:

Bərdə rayonunda 4 nəfər, Bakı şəhərində 3 nəfər, Goranboyda 3 nəfər, Gədəbəy, Göygöl, Lənkəran, Lerik, Sabirabad, Şəki və Yardımlı rayonlarının hərəsində 2 nəfər, Ağdaş, Ağsu, Astara, İsmayıllı, Kəlbəcər, Masallı, Oğuz, Qazax, Salyan və Şəmkir rayonlarının hərəsində 1 nəfər. 11-ci siniflər üzrə belə hallara yalnız Gəncə şəhərində və Kəlbəcər rayonunda (hərəsində 1 nəfər) rast gəlinib.

**Sözügedən rəqəmlər barədə fikirlərini "Şərq"lə bölüşən təhsil üzrə ekspert Nabatəli Qulamoğlu bildirib ki, təhsildə belə savadsızlığa "funksional savadsızlıq" deyilir:** "Funksional savadsızlıq" sovet dövründə də olub. Səbəb isə insanların maddi durumunun aşağı olması idi. Pandemiya dövrünə qədər "Funksional savadsızlıq"la bağlı hansısa məlumat əldə etməmişəm. İndi valideynlər ayıq-sayıqdırlar, övladlarını oxutmaq üçün səylə çalışırlar, yeri gəlsə, pul xərcləyirlər. Yəqin ki, sözügedən rəqəmlər pandemiya dövrü ilə bağlıdır. Bunun da obyektiv səbəbləri var. Birincisi, məhz pandemiya ilə əlaqəlidir. Koronavirusun gətirdiyi bəlalardan biri də odur ki, insanlar özlərinə iş-güc tapmaq üçün müxtəlif vasitələrdən istifadə edirlər. İkinci səbəb isə valideyn və yaxud məktəb rəhbərliyinin səhlənkarlığıdır. İstəməzdim ki, sözügedən məqamı "Funksional savadsızlıq" adlandırsınlar. Düşünürəm ki, əlimizdəki metod və imkanlardan istifadə edib, pandemiya dövründə itirdiklərimizi qısa müddətdə əldə etmək imkanımız olsun. Ümid edirəm ki, bu istiqamətdə gec-tez addımlar atılacaq. Hələ ki, pandemiya ilə mübarizə gedir, ona görə də tezliklə optimist halın olacağına inanmıram".

**Yeganə Bayramova**

# "Yay məktəbi" regionlarda böyük maraqla qarşılanıb

Bildiyimiz kimi, mövcud vəziyyətlə əlaqədar olaraq, cari tədris ilinin əhəmiyyətli hissəsi distant formada təşkil edildi. Pandemiya şəraitində məsafədən təhsil şagirdlərə bilik və bacarıqların mənimsənilməsində müəyyən çətinliklər yaratdı. Mövcud vəziyyəti nəzərə alaraq, Təhsil Nazirliyi tərəfindən şagirdlərin zəruri bilik və bacarıqlarının möhkəmləndirilməsi, öyrənilənlərin ümumiləşdirilməsi məqsədilə 16 iyun 2021-ci il tarixindən etibarən 2 həftə müddətinə ümumi təhsil müəssisələrində ödənişsiz və könüllü əsaslarla "Yay məktəb"i təşkil edildi.



Qeyd edək ki, Azərbaycanda yay müddətində yay məktəbi və düşərgələri sovetlər dönəmində kütləvi şəkildə istifadə olunmağa başlamışdı. İlk dəfə 1921-ci ildə Azərbaycan məktəbliləri üçün pioner düşərgələri təşkil olundu. Bunu istirahət adlandırsaq da, təhsil nəzəriyyəsində göstərilib ki, bu, şagirdlərin tədris prosesində öyrəndikləri nəzəri məlumatların praktiki olaraq həyata keçirilməsidir. Yay məktəbləri və yay düşərgələri şagirdlərdə ünsiyyətin yüksək səviyyədə inkişafı, təhsil prosesindən uzaqlaşmaması, tədris ili müddətincə qismən tanış olduqları sinifdənxaric oxu materiallarını daha dərindən öyrənmək, istehsalat və peşə fəaliyyəti ilə yaxından tanış olmaq üçün fəaliyyət göstərir. Bu, bütün dünyada mövcud prosesdir. Artıq bir neçə gündür ki, ölkəmizdə yay məktəbləri təşkil edilir.

*"Quba rayonunda 27 min şagirddən 10 minə yaxını "Yay məktəbi"nə ərizə verib"*

**Mövzu ilə bağlı Quba RTŞ-nin aparıcı məsləhətçisi Qələmşah Dostuyev "Şərq"ə açıqlama verib. O vurğulayıb ki, ölkəmizdə yay məktəbləri valideynlərin ərizəsi əsasında təşkil olunub:** "Qeyd edim ki, qanuna əsasən hər sinifdə ən azı 3 şagird olanda dərslər təşkil oluna bilər. Əgər şagird sayı bundan azdırsa, onlar yaxın siniflərlə birləşdirilir. Məsələn, 3 və 4 , 5 və 6-cı siniflərlə. Müşahidə etdiyimiz qədərilə tədris kifayət qədər böyük maraqla qarşılanıb. Təbii ki, bu yeni bir layihədir və müəyyən çətinliklər var. Lakin buna baxmayaraq, layihə kifayət qədər uğurlu alınır. Şübhəsiz ki, növbəti illərdə daha da təkmilləşmiş formada təşkil etmək mümkün olacaq. Fikrimcə, infrastruktur imkanları genişləndirilsə daha yaxşı olar. Qeyd edim ki, "Yay məktəbi"ndə əsas 3 fənn - ana dili, riyaziyyat və xarici dil tədris olunur. Daha 3 fənni isə məktəb özü müəyyənləşdirir. Xüsusən hansı fənlər üzrə geriləmələr daha çox müşahidə olunursa, onlar keçirilir".

**Q.Dostuyev qeyd edib ki, bu layihə çox böyük yenilikdir:** "Sadəcə bunu optimal formada təşkil etmək üçün hələ xeyli iş aparılmalıdır. Zənnimcə, "Yay məktəbi"nə valideynlərin də müəyyən dərslər zamanı cəlbi məsələsi nəzərdə tutula bilər. İlk növbədə buna uyğun müəyyən maddi-texniki baza gücləndirilməlidir. Məsələn, "Yay məktəbi" üçün karandaş, kağız, rəngli vərəq, boya və s. kimi əşyaları nəzərdə tutmaq olar. Hazırda Quba rayonunda 27 min şagirddən 10 minə yaxını "Yay məktəbi"nə ərizə verib və dərslərdə hazırda iştirak edirlər. Hələki "Yay məktəbi" ilə bağlı ciddi bir problemlərimiz olmayıb. Dərslərə qoşulan şagirdlərin sayında isə azalma yox, əksinə, artım müşahidə olunur. Bu isə çox yaxşı haldır".

**Aynurə Pənahqızı**

# "Müasir Azərbaycan ədəbiyyatı Nargin adasına bənzəyir"

## *Akif Emenquey: "Bu yerdə hər gün nə qədər şair, yazıçı güllələnir"*

Bəzən düşünürsən ki, yazıçılar Allahın xoşbəxt bəndələridirlər. İstədikləri var, əllərinə qələmi alıb yazırlar. Beləliklə, həm mənəvi rahatlıq tapır, həm cəmiyyətə öz fikirlərini çatdırır, həm də pul qazanırlar. Hərdən isə elə bilirsən ki, Tanrı onları lənətləyib. Çünki yazmasalar, dayana bilmirlər...

Hər halda bir məsələ aydındır: gənc və uğurlu ədiblərimiz kifayət qədərdir. Onlardan biri də şair, yazar Akif Emenqueydir. Akif bəy "Şərq"in suallarını səmimi cavablandırdı. Müsahibəni təqdim edirik:

**- Başlayaq, bir müddət əvvəlki ad günününüzdən. "Facebook" hesabınızda təbrikləri oxudum, videoları izlədim. Bu yaşınızın əvvəlki yaşlardan fərqi nə oldu?**

- Əslində mənim üçün yaş anlayışı yoxdur. Məsələn, yaponlar insanın yaşını ta ana bətnində döl ikən hesablamağa başlayırlar. Beləcə, hər yapon bizimlə eyni yaşda olsa da, həm də bizdən bir yaş böyük sayılır. Mən düşüncələrimlə, yaşadıqlarımla, kədərimlə, sevincimlə, sevgimlə yaşıdam. Bütün bunlar nə qədər dərindirsə, bir o qədər böyüyəm. Bu mənada, mənim üçün indiki yaşın o yaşdan fərqliliyi sadaladıqlarımda baş verən dəyişikliklərdir.

**- Təbrik edənlərin əksəriyyətinin qələm adamları olduğunu gördüm. Ədəbiyyat insana çox şey, o cümlədən dostlar qazandırır. Bəs, sizcə, nəyi alır insandan?**

- Məncə, diqqətlə izləməmisiniz. Məni təbrik edənlərin əksəriyyəti şəxsən tanımadığım, Azərbaycanın müxtəlif bölgələrində, ölkədən kənarda yaşayan izləyicilər, dostlar, oxuculardır. Qələm adamları ilə çox da yaxın deyiləm.

**- Niyə belədir?**

- Çünki vacib saydığım diqqət məhz məni tanımayan adamlardadır. Onların məndən umacağı yoxdur - nə bir xüsusi istəyi, nə də başqa nəsə. Uzaqdan-uzağa izləyirlər, oxuyurlar, könüllərinə yatmışamsa, hörmətlərini, sevgilərini dilə gətirirlər. Qələm adamları ilə yaxınlığım o qədər azdır ki, heç şeir kitabımı belə onlara satmamışam (gülür).



"Birini oxucuları vurur, biri öz dilinin bəlasına düşür, biri azadlığını satmadığı üçün öldürülür"

**- Şeirlərinizdən birində "Ya bir adam gələydi, sən olmasan da olar" deyirsiniz. Gələnlər gedənlərin yerini doldura bilir?**

- "Sən olmasan da olar" demişəm. Heç kim heç kimin yerini doldurmur. İnsan öləndən sonra dəfn olunur, düzdürmü? İcazə verilir ki, bir insanın dəfn olunduğu yerdə əgər başqa yer yoxdursa, bir müddət sonra daha başqa doğması basdırılsın. İnsanın içi də belədir. Bir müddət sonra içində basdırdığın adamların yerinə bir başqasını rahatca basdıra bilərsən. Yəni bu, yer doldurmaq sayılmır. Və heç kim heç kimin yerini doldurmalı da deyil. Hərənin öz yeri var.

"Öldürənlər kimlərdir? "Manıs"lar, kulturistlər, rəqqasələr, fotomodel adı ilə əxlaqsızlıq edənlər, Bayram Nurlular və sairələr"

**- Dahilərdən biri təxminən belə deyib: "İnsan həyatında bir dəfə sevir, qalanları isə sadəcə axtarışdır". Siz necə düşünürsüz?**

- Sevgi - eyni palçığa dəfələrlə girməkdir. Bu deyim də məndən qalsın. İnsan nə qədər varsa, o qədər də sevə bilər - əgər tərk olunubsa. Amma hər dəfəsində mütləq ki, əvvəlki sevgilərini şirin bir xatirə kimi yada salacaq.

**- "Həyatınızı çətinləşdirənlər üçün" essenizdə yazmısınız ki, bədbəxtlik deyə bir şey yoxdur. Elə isə xoşbəxtlik nədir?**

- Hər şey həyatda nisbi olduğu kimi, bu da nisbi bir anlayışdır. Mənim xoşbəxt olduğum şeylər sizə qəribə gələ bilər, gülərsiniz. Məsələn, kitabımı imzalayıb poçtla oxuculara yollamaq bu dövrdə, bu cəmiyyətdə çox adama maraqsız görünə bilr. Mənim üçün isə əsl xoşbəxtlikdir. Xoşbəxtlik - azad olmaqdır. Xoşbəxtlik - cəsarətli olmaqdır. Xoşbəxtlik başıdik gəzə bilməkdir. Xoşbəxtlik - sevilən olmaqdır...

**- Yazıçı, şair ən çox nə vaxt xoşbəxt olur?**

- Bayaq da dediyim kimi, şair oxunanda, seviləndə, kitabına verilən dəyəri maddi və mənəvi halda tam komplekt görəndə xoşbəxt olur. Şəxsən mənə öləndən sonra verilənlər lazım deyil.

**- Müasir Azərbaycan ədəbiyyatı barədə fikirləriniz nədir?**

- Müasir Azərbaycan ədəbiyyatı Nargin adasına bənzəyir - Xəzərdə tənha bir yer. Bu yerdə hər gün nə qədər şair, yazıçı güllələnir. Birini oxucuları vurur, biri öz dilinin bəlasına düşür, biri azadlığını satmadığı üçün öldürülür. Öldürənlər kimlərdir? "Manıs"lar, kulturistlər, rəqqasələr, fotomodel adı ilə əxlaqsızlıq edənlər, Bayram Nurlular və sairələr.

**- Və sonda gələcək yaradıcılıq planlarınız barədə oxucularımıza qısa məlumat verərdiniz.**

- Yaradıcılığımla bağlı plan qurmuram. Çünki plan qurulacaq bir məsələ düşünə bilmirəm. Plan qurmaq üçün yaxşı pulun olmalıdır. Pulun olandan sonra plan qur, əsərlərinə tərcümə etdir, reklamına vəsait xərclə. Amma nəzərinizə çatdırım ki, çox gözəl işlərdə imzam olacaq. Məsələn, Mirzə Fətəli Axundzadənin "Müsyo Jordan və Dərviş Məstəli şah" əsərinin etno-müzikl tamaşasında imzam var. Bu tamaşanın müzikl hissəsi mənə aiddir. 28-ci yaş gənc şairlərə, yazıçılara verilən prezident təqaüdünü mənə gətirdi. Yenilik deyirdiniz, bu da sizə yenilik...

**Kənan Novruzov**

# Orta məktəblərdə tədrisin keyfiyyətinə nəzarət yoxdur



*Məlum olur ki, məktəbi "5" qiymətlərlə bitirən məzunların yalnız 32.06 faizi attestat qiymətlərini doğrulda bilib*

2020-2021-ci tədris ilində Bakı məktəblərində 20 direktorun müqaviləsinə xitam verilib. Bunu jurnalistlərə açıqlamasında Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Mehriban Vəliyeva deyib. M.Vəliyeva vurğulayıb ki, növbəti tədris ili üçün Bakı şəhəri üzrə 40-a yaxın məktəbə direktor vəzifəsinə vakant yer var və Təhsil Nazirliyi tərəfindən direktorların işə qəbulu müsabiqəsinə çıxarılıb.

**Mövzu ilə bağlı təhsil eksperti Kamran Əsədov "Şərq"ə açıqlama verib. O qeyd edib ki, təhsil qanunvericiliyinə görə orta məktəbin məqsədi təkcə ali məktəblərə tələbə hazırlamaq deyil. Amma buna baxmayaraq orta məktəblər şagirdlərdə minimum bilik və bacarıqları formalaşdırmalıdırlar:** "Ötən il Azərbaycanda keçirilən I-IV ixtisas qrupları üzrə qəbul imtahanlarında abituriyentlərin 42 faizi 200-dən az bal toplayıb. Qeyd edim ki, Dövlət İmtahan Mərkəzinin (DİM) nəşr etdiyi "Abituriyent" jurnalının 12-ci sayında əksini tapan məlumata görə, I-IV ixtisas qrupları üzrə qəbul imtahanlarında iştirak edən abituriyentlərin 26 faizi 0-99 bal yığıb. Bundan başqa, attestatda bütün qiymətləri "5" olan abituriyentlərlə bütün qiymətləri "3" olan abituriyentlərin imtahan ballarını müqayisə edəndə görürük ki, tam orta məktəbi bütün fənlərdən "3" qiymətlə başa vuran məzunların 94.13 faizinin qəbul imtahanlarındakı nəticələri də çox zəif - 0-200 bal intervalında olub. "5" qiymətlə bitirən məzunların isə yalnız 32.06 faizi attestat qiymətlərini doğrulda bilib. Bu da məktəblərdə verilən aşağı qiymətlərin obyektiv olduğunu, yüksək qiymətlərin isə nisbətən şişirdildiyini göstərir. Təhsil Nazirliyində hesab edirlər ki, ali məktəblərə qəbul imtahanı zamanı ən mühüm göstəricilərdən biri olan orta bal cari ilin məzunlarının hazırlıq səviyyəsini tam əks etdirmir. Çünki orada əvvəlki illərin məzunlarının da sayı var. Yəni imtahanlar zamanı orta qəbul balını müəyyənləşdirərkən buna əvvəlki illərin məzunlarının da ciddi təsirinin olduğunu nəzərə almaq lazımdır. Çünki hər il universitetə sənəd verən bütün abituriyentlər həmin ilin məzunu olmur. Əvvəlki illərin məzunlarının məzun olduqları illərə görə topladıqları orta balın təhlili göstərir ki, məzun olunan il uzaqlaşdıqca toplanılan orta bal azalır. Yəni illər ötdükcə abituriyentin bilik və hazırlığı təbii olaraq azalır və bu da özünü imtahan nəticələrində göstərir. İllər üzrə ballara nəzər salanda aydın olur ki, müəyyən ilin abituriyentlərinin orta balı cari ilə yaxınlaşdıqca özündən əvvəlki ilin abituriyentlərinin orta balından yüksək olur".

**K.Əsədov əlavə edib ki, əslində nəticələri zəif olan məktəblərə nəzər saldıqda görürük ki, onlara rəhbərlik edənlər qeyri-ixtisasın nümayəndələridir:** "Yəni "direktorluq haqqında" qanunun tələbinə görə yalnız ali pedaqoji təhsili olanlar məktəbə rəhbərlik edə bilərlər. Bu o deməkdir ki, onlar təhsili dərindən bilənlərdir. Lakin hazırda qanunvericiliyin tələblərini kobud şəkildə pozaraq ixtisasdəyişmə ilə müəllimlik adını alıb direktor işləyən şəxslər var. Onlar direktorluğa Təhsil Nazirliyi tərəfindən keçirilən imtahanlarda qalib gələ bilməmələrinə baxmayaraq, hansısa yolla təyin olunublar. Hesab edirəm ki, iki il ərzində məzunları ali məktəblərə qəbul imtahanlarında uğur qazanmayan məktəb direktorları vəzifədən uzaqlaşdırılmalıdır. Onlar uzun müddətdir ki, öz qohum - tanışlarını məktəbə cəlb edib dövlət vəsaitini mənimsəyirlər. Hesab edirəm ki, bu direktorlar və nəticələri zəif olan məktəblər barəsində ciddi tədbir görmək lazımdır. Son illərin imtahan nəticələri göstərir ki, orta məktəblərdə tədrisin keyfiyyətinə nəzarət yoxdur. Tədrisin keyfiyyətinə nəzarətin olmaması sonda bu kimi vəziyyətlərin ortaya çıxmasına səbəb olur".

**Aynurə Pənahqızı**

## Təbrik edirik!



Bu gün Bakı Dövlət Universiteti Filologiya fakültəsi, Tələbə Gənclər Təşkilatının sədri **Ələkbər Həsənovun** doğum günüdür. Ələkbər Həsənov, 2019-cu ildə Bakı şəhəri, Yasamal rayonu, Telman Abbasov adına 225 nömrəli tam orta məktəbini bitirmiş və Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin rus dili və ədəbiyyat müəllimliyi ixtisasına qəbul olmuşdur. Ələkbər Həsənov onu doğum günü münasibəti ilə təbrik edən hər kəsə təşəkkürünü bildirir.

## Testin cavabını 10 saniyəyə verir

### Türkiyədə "Diagnovir" sisteminin istifadəsinə başlanıb

*(Əvvəli səh: 16-da)*



**Bu test sistemi PCR analizlərini əvəzləyə bilər. Saniyələr içində testin cavabları bəlli olur. Rektor bildirib ki, hazırda testin mərhələli istehsalı aparılır, dünyanın hər tərəfindən ona tələb var.**

Xüsusən yoluxma risqi böyük olan hava limanları kimi məkanlarda test cavablarının saniyələr içində bəlli olması arzu edilir. Bu səbəbdən də hava limanları belə bir testə sahib olmağa çalışır. Həmçinin iri müəssisələr, futbol klubları da. Məsələn, Almaniya Futbol Liqası bu test sistemini əldə etmək istəyir. Bu testlərin dünyada tayı-bərabəri olmadığına inanırıq". Universitet testi məzun günündə uğurla sınaqdan keçirib, sistemin güvənli olduğunu təsdiqlənib. Səhiyyə Nazirliyinin Xalq sağlamlığı Baş İdarəsi sistemin tətbiq edilə biləcəyinə razılıq verib. Rektor sistemin necə çalışdığını belə anladıb: "virus pozitivdirsə, virus proteinləri komplektə bağlanaraq optik siqnal verir. Bu sürətli siqnal nəticəsində ortaya çıxan alqoritmlər fərqli variantlara - neqativ və ya pozitiv - cavab verə bilir. Xəstədən alınan nümunə pozitivdirsə 5-10 saniyə içində, neqativdirsə, digər müayinələr də aparılaraq 20-30 saniyə içində cavab çıxır".

**Məlahət**

## TƏKRAR HƏRRACIN KEÇİRİLMƏSİNƏ DAİR ELAN

Şəmkir rayon İcra Şöbəsinin 26.05.2021-ci il tarixli, 97510/2019-12 saylı sifarişi ilə, Şəmkir şəhəri ərazisində yerləşən 0,04 ha torpaq sahəsinə dair 22 iyun 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş ilkin hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin torpaq sahəsi ilkin satış qiyməti olan 6.000 (altı min) manatdan 10% aşağı, yəni 5.400 (beş min dörd yüz) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 06 iyul 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 270 (iki yüz yetmiş) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

**Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla**

*(Əlavə olaraq "Qeyd"ə bax).*

**QEYD:** Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) iş günü qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır.

**1)** Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq);

**2)** Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd;

**3)** Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

**4)** Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

**5)** Torpaq sahələri hərracı üzrə xarici, hüquqi və fiziki şəxslər hərraca buraxılmırlar;

**6)** Hərracın iştirakçılarına onların hərracda iştirakı statusunu əldə etməsini müəyyənləşdirən bilet verilir;

**7)** şəxs hərracda iştirak etmək üçün ərizənin qəbulu başa çatanadək təşkilatçıya yazılı formada müraciət etməklə, öz ərizəsini geri götürə bilər;

**8)** Ərizənin geri götürülməsi hərracın şərtlərinə uyğun olduqda, ödənilmiş beş məbləği 2 (iki) iş günü ərzində geri qaytarılır.

**9)** Hərracda iştirak edən, lakin onu udmayan şəxslərin behi 2 (iki) iş günü müddətində geri qaytarılır;

**10)** Hərracda iştirak etmək hüququ əldə etmiş şəxslərə "sifarişçi" və (ya) "təşkilatçı" tərəfindən satışa çıxarılan əmlakla tanış olmaq imkanı yaradılır;

**11)** Qalib gəlmiş şəxs qanunvericiliyə uyğun tərtib edilmiş protokolu hər hansı üzürlü səbəbi olmadan imzaladıqda, yaxud əmlakın dəyərini ödəməkdən imtina etdikdə verilən beh geri qaytarılmır. Hərracın qalibi hərracın yekunları barədə protokolun tərtib edildiyi vaxtdan ən geci 3 (üç) iş günü ərzində ödəməli olduğu pul vəsaitini "sifarişçi" icra qurumunun depozit hesabına köçürməlidir.

**Hərracın təşkilatçısı "Əmlak Hərrac Mərkəzi" MMC**

**Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.**

**Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com**

**rəsmi internet saytı: e-herrac.com**


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**



Baş redaktor: **Akif Aşırlı**

Baş redaktorun ı müavini: **Yusif Nəzərli**

Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı

**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535 **www.sherg.az** e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı. **Telefon: 447-32-41 538-44-50, internet 538-44-15, İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611** SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111 Kod 200112 M/H AZ37NABZ01350100000000001944 VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1138

# Testin cavabını 10 saniyəyə verir

Türkiyədə “Diagnovir” sisteminin istifadəsinə başlanıb



**Türkiyənin Bilkent Universiteti Ulusal Nanotexnoloji Araşdırma Mərkəzində türk tədqiqatçılar tərəfindən ”Covid-19” analizinin cavabını 10 saniyə içində 99 faiz təminatla verən nanotexnologiya əsaslı ”Diagnovir” sisteminin istifadəsinə başlanıb.**

”Şərq” ”AA” Xəbər Agentliyinə istinadən bildirir ki, Bilkənd Universitetinin rektoru, professor-doktor Abdullah Atalar Türkiyədə koronavirusla bağlı ilk yoluxma faktının müəyyənləşməsiylə UNAM-la əməkdaşlıq quraraq sözügedən sistemin tətbiqinə başladıqlarını deyib: ”Bu, ən sürətli test sistemidir.

*(Davamı səh: 15-də)*

**Məlahət**

# Yaxasında qatilin fotosu

Qızı öldürülən ana məhkəməyə belə getdi





**İstanbulda birlikdə yaşadığı Ercan Akkaşın öldürdüyü Seda Akarın anası Bedia Akar üzərində qızının və qatil şübhəlisinin fotosu olduğu mayka ilə məhkəməyə gedib.**

Bu barədə ”Şərq ” ”Posta”ya istinadən xəbər verir. Bildirilir ki, o, hadisənin üzərindən iyirmi ay keçməsinə rəğmən, şübhəlinin hələ də tapılmamasına görə belə addım atıb.

**Kənan**

# Arvadına təcavüz edən şəxsin başını kəsdi

Sonra isə parkda hər kəsin gözü qarşısında təpiklədi





**ABŞ-ın Nyu-Meksika ştatında qandonduran cinayət hadisə baş verib.**

Unikal.org bildirir ki, Coel Saenz adlı kişi arvadına təcavüz edən 51 yaşlı Ceyms Qarcianı ”Apodoca” parkına kimi izləyib. Daha sonra o, avtomobildən düşən Ceymsə yaxınlaşaraq, yüksək səslə qışqırmağa başlayıb. Aralarında yaranan mübahisə ölümlə bitib. Belə ki, Coel Ceymsə boğazında bıçaq zərbəsi endirərək, onun öldürüb. Hirsi bununla soymayan kişi Ceymsın başını kəsib və parkda hər kəsin gözü qarşısında təpikləyib. Qısa zamanda parka polis əməkdaşları cəlb olunub. Cinayəti törədən şəxs isə bölməyə aparılıb. Onun barəsində qətimkan tədbiri seçilib.

# Hindistanda koronavirus ilahəsi...

Məbədə hər gün yüzlərlə insan gəlir



**Hindistanın Uttar Pradeş əyalətində ”Corona Mata” (Korona ilahəsi) adlı məbəd istifadəyə verilib. Axşam.az xəbər verir ki, bu barədə ”India Times” nəşri məlumat yayıb.**

Vətəndaşların ianələri ilə tikilən məbədə hər gün yüzlərlə insan gəlir. Onlar ilahənin koronovirusdan əziyyət çəkən milyonlarla insanın həyatını xilas edəcəyinə inanırlar.

*Qeyd edək ki, Uttar Pradeş Hindistanın ən çox koronavirusdan əziyyət çəkdiyi əyalətdir.*



# Kanadalılar üzgündür

*Məktəbin bağçasından yüzlərlə uşaq qəbirləri tapılıb*



**Kanadada internat kilsə məktəbinin bağçasında yüzlərlə ölü cəsədin qalıqları olan yeni uşaq qəbirləri tapılıb. Məzarlar Saskatçevan əyalətindəki internat məktəbinin bağçasında olub. Səlahiyyətli şəxslər bölgədəki məzarların indiyə qədər tapılan ən çox uşaq qəbirləri olduğunu söyləyib.**

”Şərq” ”Haberglobal.com”a istinadən bildirir ki, Kanada tarixindəki ən böyük uşaq istismarçısı sayılan kilsə internat məktəblərindən birincisi 1880-ci illərin əvvəllərində açılıb, sonuncusu isə 1996-cı ildə bağlanıb. Kanada ”Birinci Millət Yerlilərinin Milli Başçısı” Perri Belqrad baş verən hadisə barədə Tvitter hesabında yazıb: ”Yüzlərlə adsız qəbirin tapılma xəbəri tamamilə faciəlidir, lakin təəccüblü deyil. Bütün kanadalıları son dərəcə çətin və emosional zamanda birlik olmağa çağırıram”.

*Qeyd edək ki, 150 mindən çox uşaq ailələrindən zorla götürülüb və kilsə internat məktəbinə yerləşdirilib. Burada uşaqların əksəriyyəti keşişlər, rahibələr və digər müəllimlər tərəfindən fiziki, cinsi və psixoloji zorakılığa məruz qalıblar. Kanada federal hökuməti 2008-ci ildə minlərlə uşağın öldüyünə və kilsə internat məktəblərində baş verənlərə görə rəsmi olaraq qurbanlardan üzr istəyib.*

**Yeganə Bayramova**

# Dünya çıxış yolu axtarır

840 milyon insan yeməksiz qalacaq



**BMT-nin Qida və Kənd Təsərrüfatı Təşkilatının ”2020-ci il Dünya Qida Təhlükəsizliyi və Bəslənmə Vəziyyəti Hesabatı”na əsasən, 2014-cü ildən bəri aclıqdan əziyyət çəkənlərin sayı durmadan artıb.**

”Şərq” ”Ntv.com”a istinadən bildirir ki, hesabatda tədbir görülməsə, 2030-cu ilədək ən azı 840 milyon insanın yeməksiz qala biləcəyi vurğulanıb. 21-ci əsrdə bir çox amil insanları vərdişlərini dəyişdirməyə və ya keçmiş vərdişlərinə qayıtmağa məcbur etdi. Dünyadakı hər kəsin həyatının son 1.5 ilinə təsir edən koronavirus epidemiyası qlobal iqlim dəyişikliyi, quraqlıq, aclıq və su ehtiyatlarında azalma kimi mövzuları gündəmdən düşməz hala gətirdi. Beynəlxalq Toxum Federasiyasının (ISF) məlumatına görə, keyfiyyətli toxum məhsul və məhsul təhlükəsizliyini artırır. Kiçik təsərrüfatçıların öz bizneslərini inkişaf etdirməsinə və gəlir əldə etməsinə imkan verən keyfiyyətli toxum da yoxsulluğun azaldılmasına kömək edir. Belə toxumlar böyümək üçün daha az su tələb edir. Təkmilləşdirilmiş davamlı toxumlar üçün daha az yer lazımdır. Torpağın çevrilməsini və meşələrin kəsilməsini azaldır, eyni zamanda daha çox böyüməyə imkan verir və daha az ekoloji iz qoyur. İsrafçılıq və insanların ac qalma ehtimalını əsas gətirən İSF bildirib ki, dövlət və özəl sektorda olanlar da daxil olmaqla qida təchizatı zəncirindəki hər kəsin iqlim dəyişikliyi, zərərvericilər və xəstəliklər kimi problemlərə qarşı əməkdaşlıq etməsi lazımdır.

**Yeganə Bayramova**

# Stresdən körpəsini itirib

Şeyma Subaşı Ibiza adasında görüntülənib



**Son zamanlar misirli sevgilisi Mohammed Alsalousi ilə nişanlandığı və sonra da hamilə olduğu xəbərləri ilə gündəmə gələn türk model Şeyma Subaşı bu dəfə məşhurların çox sevdiyi tətil mərkəzi Ibiza adasında görüntülənib.**

Şeyma Subaşının yanında nişanlısının deyil, rəfiqələrinin olması da diqqət çəkib. O, rəfiqələriylə dəniz sahilində gün keçirib. Diqqət çəkən digər məqamsa Şeymanın mobil telefonuna davamlı baxması, üzündə isə ciddi bir ifadənin olmasıdır. Şeymanın son halı sosial media izləyicilərinin gözündən qaçmayıb. Model üzücü xəbəri sosial media üzərindən duyurub: ”Öncəki paylaşımda yüksək stresdən dolayı toyumuzu ertələdiyimizi söyləmişdim. Təəssüf ki, bu stres körpəmi itirməyimə səbəb oldu. Çox üzgünəm. Dəstəyiniz üçün təşəkkür edirəm. Yas saxlamaq və yaşadığım stresdən qurtulmaq üçün zamana ehtiyacım var”. Halbuki təxminən 2 həftə əvvəl Şeyma nişanlısından evlilik təklifi aldığını sosial media hesabından yayaraq belə yazmışdı: ”Həyatımın ən möcüzəli və unudulmaz bir anı! Duyğularımı anladacaq kəlmə tapa bilmirəm...”

**Məlahət**